2 noyabr 2022 №81 (1954)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Əlcəzair münasibətlərində yeni mərhələ



Xəbər verildiyi kimi, 1-2 noyabr tarixlərində Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Sammiti keçirilir. Əlcəzair Xalq Demokratik Respublikası 4-cü dəfə ərəb dövlətlərinin zirvə toplantısına ev sahibliyi edir.

1945-ci ildə təsis edilən Ərəb Dövlətləri Liqasının 22 üzvü var. Təşkilatın mənzil-qərargahı Misirdə (Qahirə) yerləşir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının (QH) sədri statusunda fəxri qonaq qismində sammitə dəvət olunub. Zirvə toplantısına BMT və İslam Əməkdaşlıq Təşkilatı baş katiblərinin də fəxri qonaq qismində dəvət edilməsi Azərbaycan liderinin QH sədri kimi beynəlxalq, o cümlədən İslam dünyasında yüksək nüfuzunu sübut edir.

Məlumat üçün bildirək ki, Əlcəzair ərazisinin böyüklüyünə görə ərəb dünyasında və Afrika İttifaqında ən böyük ölkədir. Əlcəzair əhəmiyyətli təbii qaz (dünyada 4-cü) və neft (dünyada 9-cu) ixracatçısıdır.

davamı səh. 2-də

## Maestro Rauf Abdullayevin 85 yaşı tamam oldu

Xalq artisti, Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Rauf Abdullayevin oktyabrın 29-da 85 yaşı tamam oldu.

Prezident İlham Əliyevin oktyabrın 28-də imzaladığı sərəncamla Rauf Canbaxış oğlu Abdullayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

səh. 5

## "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı müzakirə edilib

Bakı Şəhər İcra Hakimiyyəti ilə AMEA A.Bakıxanov adına Tarix İnstitutunun birgə nəşri olan "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" (Azərbaycan, rus və türk dillərində) kitabı çapdan çıxıb.

Noyabrın 1-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında şanlı Zəfərimizin ildönümünə həsr olunmuş nəşrin müzakirəsi keçirilib.

Tədbir Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Milli Kitabxananın birgə təşkilatçılığı ilə gerçəkləşib. Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək bildirib ki, kitabda hadisələr bilavasitə iştirakçıların dilindən nəql olunur. Üç dildə nəşr edilən kitabın digər xarici dillərdə də çap edilməsi nəzərdə tutulur.

davamı səh. 2-də

## II Qarabağ müharibəsinin azyaşlı qurbanlarının xatirəsi Mexikoda anılıb



Azərbaycanın Meksikadakı Səfirliyi bu ölkənin ən əlamətdar milli günlərindən sayılan, vəfat etmiş insanları yad etmək üçün qeyd olunan Xatirə Günü (Dna de Muertos) münasibətilə paytaxt Mexikodakı tədbirlərdə iştirak edib.

səh. 2

# Türk dünyasının kinosu Bursada ekrana çıxır

### Dədə Qorqud Türk Dünyası Film Festivalında Azərbaycan filmləri də nümayiş olunur

Xəbər verdiyimiz kimi, 1-5 noyabr tarixində Türkiyənin Bursa şəhərində 2-ci Dədə Qorqud Türk Dünyası Film Festivalı keçirilir. İlk dəfə ötən il İstanbulda gerçəkləşən festivalın bu ildən etibarən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan şəhərlərdə keçirilməsi qərara alınıb. "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursadan sonra 2023-cü ildə festivalı bu statusla Azərbaycanın Şuşa şəhəri qəbul edəcək.




Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, Bursa Böyükşəhər Bələdiyyəsi, Beynəlxalq Sinema Dərnəyi, TÜRKSOY və digər qurumların dəstəyi ilə ərsəyə gələn festivalda Azərbaycan da iştirak edir.

Təşkilat komitəsinin məlumatına görə, festivala Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, eləcə də Şimali Kipr, Rusiya Federasiyasının türk kökənli muxtar respublikaları olmaqla – ümumilikdə 150-dən çox qonaq, həmçinin Türkiyənin film sektorunun 200-dək təmsilçisi qatılıb.

Atatürk Konqres Mədəniyyət Mərkəzində başlayan festival çərçivəsində noyabrın 4-də "Özbək Kinosu Günü" də təşkil ediləcək.

Həmçinin festivalda Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Bursa Böyükşəhər Bələdiyyəsi və TÜRKSOY-un əməkdaşlığı ilə "Fikrət Əmirovun 100 illiyi və Türk Dünyasının Mədəniyyət Paytaxtı Bursa" adlı konsert düzənlənəcək. Xatırladaq ki, 2022-ci il TÜRKSOY tərəfindən Azərbaycanın böyük bəstəkarının şərəfinə "Fikrət Əmirov İli" elan edilib.

Festivalın proqramında tammetrajlı bədii film yarışmasına 10, sənədli film yarışmasına isə 14 ekran əsəri qatılıb.

Bu sırada Azərbaycandan Xalq artisti, kinorejissor Vaqif Mustafayevin "Həyat, deyəsən, gözəldir" bədii filminin dünya premyerası da olacaq. Mədəniyyət Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan film 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfərə həsr edilib. Filmin ssenarisini rejissor özü yazıb.

Bundan əlavə, müsabiqə proqramında rejissor Teymur Şahinoğlunun "Dalan" sənədli filmi də yer alıb. Ssenari müəllifi jurnalist Şahin Hacıyev olan 90 dəqiqəlik filmdə Ermənistan-Azərbaycan münaqişəsinin ötən əsrin əvvəllərinə gedib çıxan kökləri və səbəblərindən bəhs olunur.

Festivalın müsabiqədənkənar "Tarixi panoram" proqramında Azərbaycan kinosunda məxsusi yeri ola "Dəli Kür" (1969, rejissor Hüseyn Seyidzadə, ssenari müəllifi İsmayıl Şıxlı) filmi bərpa olunmuş versiyada, "Cari insan mənzərələri" proqramında isə "Otel otağı" (1998, rejissor Rasim Ocaqov, ssenari müəllifi Anar) filmləri kinosevərlərin görüşünə gələcək.

davamı səh. 2-də

## Bədii təhsil ocaqlarına müsabiqə ilə qəbul olunmuş müəllimlərlə görüş

"Biz islahatlara musiqi və incəsənət məktəblərindən başladıq. Çünki bu sahə baza rolunu oynayır və burada proseslərin təməli daha möhkəm və etibarlı qoyulmalıdır".

Mədəniyyət naziri Anar Kərimov bu fikirləri oktyabrın 31-də Beynəlxalq Muğam Mərkəzində uşaq musiqi və incəsənət məktəblərinə işə qəbul müsabiqəsində uğur qazanmış müəllimlərlə görüşündə dedi.

Son iki ildə nazirlik tərəfindən mədəniyyət sahəsində həyata keçirilən islahatlar haqqında söz açan Anar Kərimov diqqətə çatdırdı ki, müasir standartlara cavab verən bir sistemə keçid mərhələsindəyik: "Bu görüşdə iştirak edən sizlər islahatlarımızın ilklərindənsiniz. Çox şadıq ki, müəllimlərin işə qəbulu belə bir qaydada, şəffaf şəkildə reallaşdı. Müəllimlərin bu qayda ilə seçimi məktəblərdə kadr potensialının



güclənməsinin başlanğıcıdır. Bu işi gələcəkdə başqa sahələrdə də davam etdirəcəyik".

Nazir bildirdi ki, son illərdə uğurla həyata keçirilən layihələr, dövlət proqramları və islahatlar mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyasına zəmin yaradıb. Prezident İlham Əliyevin mədəniyyət sahəsinə dair imzaladığı fərman və sərəncamların icrası ilə əlaqədar Azərbaycanda mədəniyyətin müxtəlif istiqamətlərinin inkişafı, peşəkar mütəxəssislərin hazırlanması, regionlarda mədəniyyətin tərəqqisi ilə bağlı mühüm işlər görülüb.

davamı səh. 3-də

## Fikrət Əmirovun 100 illiyi UNESCO-da qeyd olunacaq

2022-ci ildə dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun (1922–1984) anadan olmasının 100 illiyi tamam olur və yubileyə həsr edilmiş silsilə tədbirlər keçirilir.

Məlum olduğu kimi, ötən il (9-24 noyabr) Parisdə keçirilən UNESCO-nun 41-ci Baş Konfransı çərçivəsində Fikrət Əmirovun 100 illiyi təşkilatın 2022-2023-cü illər üzrə yubileylər proqramına daxil edilib.

Noyabrın 3-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və UNESCO-nun birgə təşkilatçılığı ilə Parisdə, UNESCO-nun mənzil-qərargahının konsert zalında Fikrət Əmirovun 100 illik yubileyinə həsr edilmiş musiqi axşamı keçiriləcək.

Konsertdə Xalq artisti, dirijor Fəxrəddin Kərimovun rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Fərhad Bədəlbəyli, Əməkdar artistlər Səbinə Əsədova, Babək Niftəliyev, gənc müğənnilər Selcan Nəsibli, Orxan Cəlilov çıxış edəcəklər. Proqrama bəstəkarın "Azərbaycan kapriççiosu", "Gülüstan Bayatı-Şiraz", "Azərbaycan süitası", Fikrət Əmirov ilə Elmira Nəzirovanın həmmüəllif olduqları "Ərəb mövzuları əsasında fortepiano konserti", bəstəkarın "Şeyx Sənan" (Hüseyn Cavid) tamaşası üçün yazdığı məşhur "Kor ərəbin mahnısı", "Azərbaycan elləri" vokal inciləri və digər əsərlər daxildir. Yubiley konsertinin rejissoru Əməkdar incəsənət xadimi Ülviyyə Könüldür.




## "Əcdadların izi ilə"

### Əməkdar rəssam Ülviyyə Həmzəyevanın fərdi sərgisi keçirilib

Muzey Mərkəzində oktyabrın 28-də Mədəniyyət Nazirliyinin dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Əməkdar rəssam Ülviyyə Həmzəyevanın "Əcdadların izi ilə" adlı fərdi sərgisinin açılışı keçirildi.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhab Məmmədov bildirdi ki, bu gün sərgini ziyarət edən hər kəs rəssamın sənəti ilə onun duyğularını sezəcək. O, Vətəninə bağlı rəssamdır və mədəniyyət paytaxtımız Şuşaya həsr etdiyi rəsm əsərini izləyəndə bir daha onun torpağa, xalqa, milli amallara bağlılığını görə bilirik.



Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsi Muzey və daşınar mədəni irs sektorunun müdiri Altun Mikayıllı rəssamın əsərlərində milli köklərə bağlılıq, xalq fəlsəfəsi və mifoloji motivlərin üstünlük təşkil etdiyini dedi.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli rəssamı sərgi münasibətilə təbrik edərək bildirdi ki, əsərlərindəki süjet və kompozisiya, mifoloji obrazlar və motivlər, milli dəyərləri mənalandıran simvolika, qurama parçaları – hamısı bir yerdə Ülviyyə Həmzəyeva sənətinin fərdi özünəməxsusluğunu müəyyən edir. Rəsm əsərlərindən aydın görünür ki, Ülviyyə Həmzəyeva çoxəsrlik Azərbaycan təsviri sənətində heç bir sənətkara bənzəməyən fərqli və fərdi üsluba malik orijinal rəssamdır. Onun miniatürləri mifoloji motivlər, xalq sənəti örnəkləri və müasir həyat fəlsəfəsi üzərində köklənmiş fərqli sənət hadisəsidir.

davamı səh. 5-də

### "Gül və zəhər" tamaşasına ictimai baxış



səh. 4

### Qoruqlar arasında təcrübə mübadiləsi və qarşıda duran vəzifələr müzakirə olunub

səh. 4



### "Yeni adlar"da piano və violonçelin dueti

səh. 5

№81 (1954)
2 noyabr 2022
www.medeniyyet.az

# Ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması

## Soçi görüşündə iki xalq arasında etimad yaradacaq səylərin vacibliyi də vurğulanıb



Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub. Görüşdə üç ölkənin liderləri tərəfindən birgə Bəyanat imzalanıb.

Bəyanatda deyilir:

Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşdük və 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etdik.

Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq etdik. Qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq.

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğuladıq.

Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik.

Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğuladıq. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşdıq. Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğuladıq.

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının liderləri Rusiya Federasiyasının bundan sonra da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sabitliyin və tərəqqinin təmin edilməsinə hərtərəfli şərait yaratmağa hazır olmasını alqışladılar.

# II Qarabağ müharibəsinin azyaşlı qurbanlarının xatirəsi Mexikoda anılıb

Azərbaycanın Meksikadakı Səfirliyi bu ölkənin ən əlamətdar milli günlərindən sayılan, vəfat etmiş insanları yad etmək üçün qeyd olunan Xatirə Günü (Dna de Muertos) münasibətilə paytaxt Mexikodakı tədbirlərdə iştirak edib.



Bu münasibətlə səfirlik ərazisində qədim Meksika ənənələrinə uyğun olaraq yaradılmış xatirə guşəsi 44 günlük Vətən müharibəsinin azyaşlı qurbanlarına həsr olunub.

Erməni təcavüzkarları tərəfindən Azərbaycan şəhərlərinin bombalanması nəticəsində şəhid olmuş uşaqların xatirə guşəsi həm Azərbaycan, həm də Meksika mədəniyyətinə xas özəllikləri özündə ehtiva edib, bu xüsusda Xatirə Günü ilə bağlı yerli Meksika adətləri ilə yanaşı, xalqımıza məxsus milli ornamentlərdən istifadə olunub, habelə qonaqlara milli anım adətlərimizə uyğun olaraq halva paylanılıb.

Mexiko şəhər rəsmiləri, media təmsilçiləri və şəhər sakinlərinin qatıldığı tədbirdə multikultural və çoxkonfessiyalı ölkə olaraq Azərbaycanın qədim Meksika adət-ənənələrinə hörmətlə yanaşdığı qeyd olunub. Qonaqlara xatirə guşəsinin həsr olunduğu azyaşlı soydaşlarımızdan, onların erməni terroru nəticəsində yarımçıq qalan həyat hekayələri, ürəklərində qalmış arzularından bəhs edilib.

Tədbirdə iştirak edən Mexiko Şəhər hökumətinin rəsmiləri ölkəmizin Meksika adət-ənənələrinə hörmət və həssaslıqla yanaşmasını yüksək qiymətləndirərək hər iki ölkə xalqlarının bir-birilərinin qədim adət-ənənələrini öyrənməsinin ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərinin möhkəmləndirilməsinə yardım edəcəyinə inandıqlarını qeyd ediblər.

# Azərbaycan-Əlcəzair münasibətlərində yeni mərhələ

## Prezident İlham Əliyev Ərəb Dövlətləri Liqası Sammitinin fəxri qonağıdır

*əvvəli səh. 1-də*

Əlcəzair üç əsrə yaxın Osmanlı imperatorluğunun nəzarətində qaldıqdan sonra 1830-cu ildə Fransa tərəfindən işğal edilib. 1954-cü il noyabrın 1-də ölkədə başlayan inqilab səkkiz il sonra müstəqilliyin əldə edilməsi ilə nəticələnib. 1962-ci ilin sentyabrında Əlcəzair Xalq Demokratik Respublikası elan edilib.

Əlcəzairdə Ərəb Dövlətləri Liqası Sammitinin milli azadlıq hərəkatının ildönümündə – ölkənin milli bayramında başlaması təsadüfi deyil. Bu il həmçinin Əlcəzairin dövlət müstəqilliyinin 60-cı ildönümüdür.

Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında diplomatik əlaqələr 1994-cü il aprelin 22-də qurulub. 2016-cı ildə bu ölkədə Azərbaycanın səfirliyi, 2019-cu ildə isə ölkəmizdə Əlcəzairin səfirliyi təsis edilib.

İki ölkə arasında müxtəlif sahələrə dair 5 sənəd imzalanıb, 7 sənədə baxılmaqdadır.

Azərbaycan Prezidentinin Əlcəzairin ev sahibliyi etdiyi beynəlxalq sammitə fəxri qonaq kimi dəvət olunması iki ölkə arasında münasibətlərdə yeni mərhələdən xəbər verir.

***

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edib. Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Qeyd edək ki, Əlcəzairin azadlığı uğrunda mübarizədə həyatını qurban vermiş döyüşçülərin xatirəsinə ucaldılmış Şəhidlər abidəsi ölkənin müstəqilliyinin 20-ci ildönümü münasibətilə 1982-ci ildə açılıb. Abidənin hündürlüyü 92 metrdir.

Milli Mücahidlər Muzeyi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verilib ki, Şəhidlər abidəsinin altında yerləşən və 1984-cü ildə açılmış muzeyin kolleksiyasının böyük hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illərdə Fransa müstəmləkəçiliyinə qarşı aparılmış xalq müqavimət hərəkatına həsr olunub. Burada rəsm əsərləri ilə yanaşı, müstəmləkəçiliyə qarşı mübarizə aparmış əlcəzairli mücahidlərə aid silahlar, arxiv materialları və döyüş əşyaları, fotoşəkillər və sənədlər, həmçinin müqavimət dövründə fransızların xalq hərəkatı iştirakçılarını cəzalandırmaq üçün istifadə etdikləri edam alətləri nümayiş olunur. Fransa müstəmləkəçiliyinə qarşı hərəkata rəhbərlik etmiş Əmir Əbdülqadirin (Əbdülqadir ibn Muhyiddin) şəxsi əşyaları və silahları, onun 1853-cü ildə fransız rəssam Anj Tisye tərəfindən çəkilmiş və yalnız 1976-cı ildə Fransa tərəfindən ölkəyə qaytarılmış portreti muzeyin ən çox ziyarət olunan kolleksiyaları sırasındadır. Muzeydə xalq hərəkatının 7 mindən çox iştirakçısının şahid ifadələri toplanıb.



Fransızlar 1830-1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Buna görə də Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub.

Fransızların Əlcəzairə münasibəti işğal etdikləri digər ərazilərdən fərqli olub. Belə ki, əgər başqa ərazilərin müstəmləkə olduğu qəbul edilirdisə, Əlcəzair Fransanın bir parçası, onun dənizarxası ərazisi sayılırdı.

Sonra Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

*Prezidentin Əlcəzairə səfəri barədə ətraflı qəzetimizin növbəti sayında.*

# "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabı müzakirə edilib

*əvvəli səh. 1-də*

Direktor kitabın ərsəyə gəlməsinə görə Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə təşəkkür edib, Mədəniyyət Nazirliyi ilə birgə beynəlxalq sərgilərdə təbliğat məqsədilə bu kitabın da nümayiş etdiriləcəyini, kitabxananın ehtiyat fondu vasitəsilə, həmçinin elektron versiyasının isə tam mətninin sayt vasitəsilə dünya oxucusuna çatdırılacağını diqqətə çatdırıb.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, layihənin rəhbəri Eldar Əzizov bildirib ki, kitab Vətən müharibəsinin əvvəlindən sonunadək bütün mərhələləri əhatə edir. Birinci Qarabağ müharibəsindəki məğlubiyyət, onun səbəbləri, Vətən müharibəsindəki Qələbə kitabın hazırlanması prosesində ətraflı araşdırılıb.

Eldar Əzizov Vətən müharibəsində qazanılan şanlı Qələbənin Prezident İlham Əliyevin dahi intellekti və müdrik sərkərdəlik qabiliyyəti sayəsində əldə olunduğunu qeyd edib.

AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli Qarabağ Zəfərinin analoqunun olmadığını, Prezidentin bu tarixi Qələbə ilə Azərbaycan tarixinə adını əbədi yazdırdığını söyləyib. Alim kitabı 44 günlük müharibəni əks etdirən birinci monoqrafik tədqiqat əsəri adlandıraraq nəşrdə müharibəyə, sadəcə, müharibə kimi baxılmadığını, həmçinin bu savaşın ermənilərin ərazi iddiaları fonunda qiymətləndirildiyini vurğulayıb.




Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli nazirlik tərəfindən vətənpərvərlik mövzusunda müsabiqələrin təşkil edildiyini, yeni əsərlərin meydana gəldiyini, habelə müzakirəsi keçirilən bu kitabın çoxdilli nəşrinin onun təbliği baxımından əhəmiyyətli olduğunu söyləyib. Şöbə müdiri kitabın bu ilin sonunda təşkil olunacaq İstanbul Beynəlxalq Kitab Sərgisində və digər sərgilərdə nümayiş olunacağını diqqətə çatdırıb.

AMEA Qafqazşünaslıq İnstitutunun baş direktoru, Milli Məclisin deputatı, professor Musa Qasımlı dövlət başçımızın uzaqgörənliyi sayəsində qazanılan Qələbəni əks etdirən kitabı təkcə bu günün deyil, gələcəyin kitabı adlandırıb, layihənin təşəbbüskarlarına və müəlliflərinə minnətdarlığını bildirib.

Kitabın elmi redaktoru, AMEA A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov 44 günlük müharibəni Azərbaycan hərb sənətinin təntənəsi adlandırıb, fundamental konsepsiya əsasında qurulan əsərin baş qəhrəmanı və əsas müəllifinin həm də Ali Baş Komandanımız Prezident İlham Əliyev olduğunu bildirib.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov kitabın ərsəyə gəlməsi, plan-prospektin hazırlanması zamanı bitkin bir konseptual yanaşmanın ortaya qoyulduğunu, nəşrin geniş oxucu kütləsinə və gənclərə ünvanlanmasının nəzərə alındığını vurğulayıb.

UNEC-in rektoru, professor Ədalət Muradov kitabın tələbələr və gənclər üçün xüsusi əhəmiyyətini qeyd edərək bunun üçün nəşrin daha geniş təbliği məqsədilə tədbirlərin görülməsinin vacibliyini bildirib.

Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Zəfər Günü şanlı tariximizdir" adlı elektron məlumat bazası da təqdim olunub.

Daha sonra Milli Məclisin deputatı Aydın Mirzəzadə, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Prezident yanında Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov, BDU-nun Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov və başqalarının çıxışları dinlənilib.

# Mətbuat xidmətlərinin rəhbərləri üçün təlim

Media Təhlil Mərkəzi (MTM) və Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin (MEDİA) dəstəyi ilə mətbuat xidmətlərinin rəhbərləri üçün Heydər Əliyev Mərkəzində təlim keçirilir.



1-3 noyabr tarixini əhatə edən təlim ölkəmizdə həyata keçirilən media islahatlarına töhfə vermək, medianın hazırkı dinamik mühitdə inkişafını təşviq etmək, jurnalistlərin bilik və bacarıqlarını daha da təkmilləşdirmək məqsədi daşıyır.

Dövlət, qeyri-hökumət və digər təşkilatların mətbuat xidmətləri rəhbərlərinin iştirak etdiyi təlimi London Şəhər Universitetinin jurnalistika üzrə professoru Barni Cons aparır. Britaniyanın "The Media Society" təşkilatının vitse-prezidenti olan B.Cons İcmalar Palatasında media məsləhətçisi kimi fəaliyyət göstərir. O, həmçinin siyasi xarakterli televiziya proqramlarının yaradıcısı və aparıcısı olub, PR və müstəqil radio müxbiri kimi çalışıb, sonradan BBC-də bir sıra layihələr üzərində işləyib.

Təlim proqramına peşəkar mətbuat ofisinin təşkili, jurnalistlərdən gələn sorğuların düzgün və vaxtında cavablandırılması, habelə Britaniya və Amerikadakı hökumət qurumları tərəfindən idarə olunan veb-saytların nümunəsində bütün məlumatların müfəssəl yer aldığı peşəkar veb-saytın təşkili, inandırma psixologiyası və digər aktual mövzular daxil edilib.

# Türk dünyasının kinosu Bursada ekrana çıxır

*əvvəli səh. 1-də*

Dədə Qorqud Türk Dünyası Film Festivalının münsiflər heyətində Azərbaycandan rejissorlar Elxan Cəfərov və Mehriban Ələkbərzadə də yer alıblar.

Noyabrın 5-də, festivalın bağlanış mərasimində müxtəlif kateqoriyalar üzrə mükafatlar təqdim olunacaq.

Ümumilikdə festivalda filmlər 6 bölmədə (o cümlədən "Turkuaz sənədli film nəsli" və animasiya) nümayiş olunacaq.

Festival proqramının diqqətçəkən məqamlarından biri də "Sənədli filmlər" kateqoriyasında İran kinematoqrafçılarının çəkdiyi "Təbrizin işğalından xatirələr" adlı filmin yer almasıdır. 63 dəqiqəlik film Azərbaycan türkcəsində çəkilib və 1941-ci ildə, 2-ci Dünya müharibəsi zamanı SSRİ hərbi kontingentinin İrana – Cənubi Azərbaycana yeridilməsindən bəhs edir.

Xatırladaq ki, həmin dövrdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı da başlanmışdı və Hitler Almaniyasının cənubdan ikinci cəbhə açmaq təhlükəsini önləmək üçün oraya yeridilən sovet hərbi kontingenti ilə yanaşı, böyük təbliğat-təşviqat dəstələri, o cümlədən Azərbaycandan mədəniyyət, ədəbiyyat xadimləri də ezam olunmuşdu. Həmin dövrdə Təbrizdə Azərbaycan dilində qəzetlər nəşr olunur, soydaşlarımızın milli özünüdərkinə xidmət edən geniş işlər görülürdü. Lakin 1945-ci ildə sovet hərbi kontingentinin çıxarılmasından sonra Təbrizdə Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi milli hərəkat süquta uğradı.

Təbii ki, dövrün bu mühüm tarixi təfərrüatları barədə sənədli filmdə söhbət açılmır və o, rus-sovet qoşunlarının Təbrizi işğal etməsi kontekstində çəkilib. Bu ekran əsərinin hansı tarixi özəlliyi ilə Dədə Qorqud Türk Dünyası Film Festivalının proqramına salınması da maraq doğurur.

# Bədii təhsil ocaqlarına müsabiqə ilə qəbul olunmuş müəllimlərlə görüş





*əvvəli səh. 1-də*

Müəllimlərin işə qəbulu prosesi ilə bağlı məlumat verən nazir qeyd etdi ki, bu ilin 7 avqust tarixində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə birgə müsabiqənin test mərhələsi, 5-9 sentyabr tarixində isə müsahibə mərhələsi keçirilib. Test mərhələsində iştirak etmək üçün qeydiyyatdan keçən 1992 namizəddən 1709 nəfər imtahanda iştirak edib, onlardan 482 nəfər tələb olunan keçid balını toplayaraq müsabiqənin müsahibə mərhələsində iştirak hüququ qazanıb. 383 nəfər elan olunmuş vakant vəzifələrə qeydiyyatdan keçərək müsahibələrdə iştirakını təsdiq edib. Müsahibələrdə iştirak edən 352 nəfərdən 215 nəfəri tələb olunan keçid balını toplayaraq müsabiqədə uğur qazanıb. Onlardan 126 nəfər (59%) ali ixtisas təhsilli, 89 nəfər (41%) orta ixtisas təhsillidir. Habelə, 8 nəfər görmə qabiliyyəti tam məhdud olan I qrup gözdən əlil uğurlu nəticə göstərərək işlə təmin olunub.

Qeyd olundu ki, uğur qazanmış 215 namizəddən ən yüksək nəticəni Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano ixtisası üzrə məzunu Lalə Əhmədova (test imtahanından 58, müsahibədən 15 bal) göstərib. Yüksək nəticələr üzrə ilk üçlüyə isə Azərbaycan Milli Konservatoriyasının məzunları Solmaz Rəhimova və Gültəkin Cavadova daxildir.

Anar Kərimov eyni zamanda müsabiqənin yüksək səviyyədə, obyektiv, qərəzsiz keçirilməsində müsahibə komissiyalarının sədrlərinin və üzvlərinin əməyini xüsusi qeyd edərək onlara təşəkkürünü bildirdi. Nazir çıxışının sonunda oktyabrın 14-də Beynəlxalq Muğam Mərkəzində "İncəsənət məktəblərində islahat prosesləri: məqsədlər və nailiyyətlər" mövzusunda keçirilən müşavirədə Bakıda və regionlarda fəaliyyət göstərən uşaq incəsənət və musiqi məktəblərinin direktorlarına gənc müəllimlərə 24 saatdan az olmayaraq iş saatının verilməsi barədə göstəriş verdiyini diqqətə çatdırdı. Dedi ki, regional idarələrin rəhbərləri bu prosesə ciddi nəzarət etməlidirlər.

Sonda müsabiqədə yüksək bal toplayan müəllimlərə və müsahibə komissiyalarının üzvlərinə nazirliyin fəxri fərmanlarını təqdim edən Anar Kərimov Azərbaycan mədəniyyətinin, təhsilinin inkişafındakı fəaliyyətlərində onlara uğurlar arzuladı.

**Lalə Azəri**

# Azərbaycan və Türkiyə sənətçilərinin "Qardaşlıq salnaməsi" konserti





Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan və Türkiyənin tanınmış sənətçilərinin iştirakı ilə "Şuşa İli" və Türkiyənin Cümhuriyyət Bayramına (29 oktyabr) həsr edilən "Qardaşlıq salnaməsi" adlı konsert keçirildi.

Oktyabrın 31-də Azərbaycan Mədəniyyət Nazirliyi ilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı və iki ölkənin bir sıra qurumlarının dəstəyi ilə gerçəkləşən gecədə elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak edirdi.

İlk olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Türkiyədə fəaliyyət göstərən "Xəzər" Folklor, Təhsil və Araşdırma Mərkəzinin ("Hazarfem" dərnəyi) rəhbəri Nuran Acar çıxış edərək konsertin təşkilində əməyi olan qurumlara təşəkkürünü bildirdi.

Daha sonra söz musiqiyə verildi.

Konsertdə Xalq artistləri Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artistlər Firuz Səxavət, Ehtiram Hüseynov, qardaş ölkədən TRT-nin solistləri Dünya Tekin, Özlem Üngör, Zafer Albayrak, İlker Gökkaya, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin solisti Mustafa Gökay Ferah, Türkiyədən digər sənətçilər Gökhan Karakaya və Mustafa Acar öz ifaları ilə gecəyə toplaşanların könüllərini oxşadılar.

Musiqiçilər tərəfindən "Şuşanın dağları", "Qaragözlər hoyratı" (uzun hava), "Dön bəri, dön, üzünü görüm", "Uzun, incə bir yoldayam", "Bağçada yaşıl çinar", "Yandırdın qəlbimi...", "Gəz, oğlum", "Xudayar təsnifi", "Hey, gidi Qara dəniz", "Baharımsan", "Bu qala daşlı qala", "Cənnətim Qarabağ", "Bəri bax", "Biz", "Çırpınırdın, Qara dəniz", "Anadır arzulara hər zaman Qarabağ" və iki ölkənin digər mahnıları böyük coşqu ilə ifa edildi.

Gecənin sonunda isə bütün ifaçılar birlikdə "Gəlmişik, Şuşa!" (söz: Vahid Əziz, musiqi: Xanım İsmayılqızı) mahnısını səsləndirdilər. Musiqiçilərin çıxışı böyük alqışlarla qarşılandı.

Konsertdə solistləri Əməkdar artist, tarzən Əliağa Sədiyevin rəhbərliyi ilə "Xarıbülbül" muğam qrupu müşayiət edirdi.

Xatırladaq ki, Azərbaycan və Türkiyənin tanınmış sənətçiləri oktyabrın 29-da "Qardaşlıq salnaməsi" adlı konsert proqramı ilə mədəniyyət paytaxtımız Şuşa şəhərində də çıxış ediblər.

**Nurəddin**

# "Hüseyn Cavid yaradıcılığında fəlsəfi əsaslar"

## Mütəfəkkir ədibin 140 illiyinə həsr olunan respublika elmi konfransı



AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda "Hüseyn Cavid yaradıcılığında fəlsəfi əsaslar" mövzusunda respublika elmi konfransı keçirilib.

AMEA-dan bildirilib ki, elmi konfrans dahi Azərbaycan şair-dramaturqu, mütəfəkkir Hüseyn Cavidin (1882-1941) 140 illik yubileyinə həsr olunub.

Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, professor İlham Məmmədzadə Hüseyn Cavidin fəlsəfi və fikir tariximizdəki yeri haqqında məlumat verib. O, dramaturqun yaradıcılığına nəzər salaraq bildirib ki, Cavid XX əsr romantik ədəbiyyatın filosof şairidir. Onun yaradıcılığı Azərbaycan romantizmində özünəməxsus yer tutur. Lakin sovet ideologiyası Hüseyn Cavid romantizminin fəlsəfi dərinliyini təhlil etməyə və dərindən öyrənməyə imkan vermirdi.

İnstitutun icraçı direktoru Eynulla Mədətli "Heydər Əliyevin Hüseyn Cavid irsinə münasibəti" mövzusunda çıxış edib. E.Mədətli ulu öndər Heydər Əliyevin hər zaman milli-mənəvi dəyərlərə önəm verdiyini bildirib: "Heydər Əliyev Hüseyn Cavid yaradıcılığını, onun həyat və mübarizəsini, müasir Azərbaycan ədəbiyyatında oynadığı müstəsna rolu özünəməxsus məntiq və məhəbbətlə ətraflı təhlil edib dəyərləndirirdi".

Konfransda "Hüseyn Cavid və sənət", "Hüseyn Cavidin türkçülük fəlsəfəsinin əsasları", "20-50-ci illərdə Hüseyn Cavid yaradıcılığına münasibət" mövzularında məruzələr dinlənilib, böyük mütəfəkkirin fəlsəfi görüşləri ətraflı təhlil edilib.

# Piratçılığa qarşı mübarizədə müəlliflik hüququnun təminatı vacibdir

## Əqli Mülkiyyət Agentliyində bu il 400-dən çox müəllif-hüquq obyekti qeydiyyatdan keçirilib

Əqli Mülkiyyət Agentliyi tərəfindən bu ilin doqquz ayı ərzində 292 müəllifin (hüquq sahibinin) və hüquqi şəxsin 412 əsəri qeydiyyatdan keçirilib. Onlardan 110 müəllifin 145 əsəri elektron qaydada qeydiyyata alınıb.

Agentlikdən bildirilib ki, müəllif hüquqlarının təminatı ilə bağlı məsələlər agentliyin fəaliyyətində daim diqqət mərkəzindədir. Müəlliflik hüququ və əlaqəli hüquq obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə nəzarət markalarının tətbiqi müəlliflik hüququnun təminatı və piratçılığa qarşı mübarizədə xüsusi əhəmiyyət kəsb edir. Qanunvericiliyə uyğun olaraq, ölkəmizdə müəlliflik hüququ ilə qorunan məhsullara nəzarət markalarının tətbiqi, o cümlədən Azərbaycan ərazisinə idxal olunan mallara nəzarət markalarının vurulması istiqamətində agentlik tərəfindən digər dövlət qurumları ilə müvafiq iş aparılır.

2022-ci ilin doqquz ayı ərzində Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi tərəfindən istifadəçilərə 100 min ədədə yaxın nəzarət markası verilib. Nəzarət markalarının əldə edilməsi üçün müraciət edən qurumlar arasında Dövlət İmtahan Mərkəzi, Dövlət Statistika Komitəsi, Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi də var.

# Tarixi abidələrin bərpası üzrə proqram həyata keçirilib



Bakıda tarixi abidələrin bərpası ilə bağlı "MakTAB" tədris proqramı həyata keçirilib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, alman bərpaçı, elmlər doktoru Corc Gilbertin rəhbərliyi ilə dövlət və özəl sektorun 40-dan çox nümayəndəsi, tələbə və fiziki şəxslər üç gün ərzində konservasiya və bərpa işləri üzrə nəzəri biliklərə yiyələnib, İçərişəhər qoruğunun abidələri timsalında dövlət tərəfindən aparılan bərpa işləri ilə tanış olublar.

Qeyd edək ki, "Tarixi abidələrin bərpası – MakTAB" məktəbi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Avstriyanın "Atelier Erich Pummer GmbH" şirkəti, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Turizm Agentliyi və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə səyi və təşəbbüsü ilə görülən çoxsaylı işlərə öz dəstəyini göstərmək məqsədilə yaradılıb.

Azərbaycanda bərpaçıları təlimə cəlb edərək onlara tarixi abidələrin konservasiyası istiqamətində əlavə biliklər aşılamaq da layihənin əsas məqsədlərindəndir.

# "İşğaldan azad olunmuş ərazilərdə radioloji və kimyəvi risklər"

Xəbər verildiyi kimi, 28-29 oktyabr tarixlərində Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunda (RPİ) "Şuşa İli"nə həsr olunmuş "İşğaldan azad olunmuş ərazilərdə radioloji və kimyəvi risklər" adlı respublika elmi-texniki konfrans keçirilib.




Konfransda işğaldan azad edilmiş ərazilərdə radiasiya təhlükəsizliyi istiqamətində aparılmış tədqiqatlardan danışılıb, bu sahədə RPİ alimlərinin fəaliyyətinə diqqət yetirilib.

Elmi konfransın yekun iclası oktyabrın 29-da Şuşa şəhərində gerçəkləşib. İclasda əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçılarına Azərbaycan Ordusunun 44 günlük Zəfər yolu, eləcə də Şuşa şəhərinin tarixi barədə məlumat verilib.

Cıdır düzündə keçirilən bağlanış mərasimində konfransa təqdim olunan mövzular üzrə gələcəkdə aparılacaq tədqiqatlarla bağlı fikir mübadiləsi aparılıb, təklif və tövsiyələr səsləndirilib.

Daha sonra RPİ-nin rəhbərliyi və əməkdaşları, konfransın təşkilat komitəsinin üzvləri, eləcə də tədbirdə iştirak edən müvafiq dövlət qurumlarının nümayəndələri Şuşa qalasını, Molla Pənah Vaqifin məqbərəsini, Xurşidbanu Natəvanın evini ziyarət ediblər.

# Gənclər Kitabxanasında "Creative Summer" layihəsi başa çatıb

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında üç ay davam edən "Creative Summer" layihəsinə yekun vurulub.



Layihə çərçivəsində 30-a yaxın gənc üçün "Adope Photoshop" və "Adobe İllustrator" qrafik dizayn proqramları ilə bağlı təlim keçirilib.

Yekun tədbirdə çıxış edən Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərov ölkəmizdə həyata keçirilən gənclər siyasətinin Azərbaycan gəncliyinin hərtərəfli inkişafı üçün geniş imkanlar açdığını vurğulayıb, bu imkanların təşviqinə xidmət edən layihələrin təqdirəlayiq olduğunu deyib.

"Guys" (Gəncliyə dəstək üçün ümumi birlik) İctimai Birliyinin sədri Mübariz Quliyev 3 ay davam edən "Creative Summer" layihəsi haqqında məlumat verib. O, təlim zamanı gənclərin xüsusi fəallıq göstərdiyini, təcrübi dərslərdə həvəslə iştirak etdiklərini vurğulayıb. Mübariz Quliyev gələcəkdə də bu səpkili layihələrin davam etdiriləcəyini söyləyərək, Respublika Gənclər Kitabxanasına yaradılan şəraitə görə minnətdarlığını bildirib.

"Freres Wear" MMC-nin həmtəsisçisi Nahid Babayev, "Binar School" proqramının rəhbəri Aydan Şahalıyeva müasir dövrdə qrafik dizayn proqramlarının əhəmiyyətindən, müxtəlif siyasi, iqtisadi, elmi, mədəni sahələrin təbliğat kampaniyalarında çox uğurlu vasitə olmasından bəhs ediblər.

Sonra təlimi uğurla başa vuranlara sertifikatlar təqdim edilib.

Qeyd edək ki, "Creative Summer" layihəsi "Guys" İctimai Birliyinin təşkilatçılığı, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının və "Freres Wear" MMC-nin tərəfdaşlığı ilə "Binary School" proqramı çərçivəsində həyata keçirilib.

# “Azad Şuşa – azad Qarabağ”

Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Ağdaş rayon Ləki qəsəbə Uşaq musiqi məktəbində “Şuşa İli” ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilər iştirak ediblər.

***



Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzinin Kürqaraqaşlı Diyarşünaslıq evində “Azad Şuşa – azad Qarabağ” adlı tədbir keçirilib. Şanlı Zəfərə həsr olunan şeirlər söylənilib, mahnılar ifa edilib, kompozisiyalar nümayiş olunub.

***

Gəncə RMİ-nin dəstəyi, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə “Şuşa İli”nə həsr olunmuş konsert keçirilib. Filarmoniyanın Kamera orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Rafael Bayramov) çıxış edib.

***



Sabirabad RMİ Şirvan şəhər Uşaq musiqi məktəbi, şəhər MKS və Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə Xurşidbanu Natəvanın 190 illik yubileyi münasibətilə ədəbi-bədii gecə keçirilib. Natəvanın həyat və yaradıcılığı haqqında məlumat verilib, onun sözlərinə bəstələnmiş mahnılar səsləndirilib.

# YAP-ın 30 illiyinə həsr olunan tədbir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin (21 noyabr 1992-ci il) 30-cu ildönümü münasibətilə Lənkəran şəhər Heydər Əliyev Mərkəzində partiyanın Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) Lənkəran rayonu üzrə ərazi təşkilatının tədbiri keçirilib.




Lənkəran RMİ-nin rəisi, YAP-ın regional idarənin Lənkəran rayonu üzrə ərazi partiya təşkilatının sədri Şahin Şahbazov bildirib ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan partiya 30 illik zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan YAP bu gün Prezident İlham Əliyevin sədrliyi ilə xalqımızı uğurlara, qələbələrə aparan yolun bələdçisi və ən etibarlı, inamlı siyasi istinadgah yeridir.

YAP-ın Lənkəran RMİ-nin Lənkəran rayonu üzrə ərazi partiya təşkilatının sədr müavini Anar Kəkəyev vurğulayıb ki, ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev 2003-cü ildə Prezident, 2005-ci ildə isə YAP-ın sədri seçildikdən sonra həm partiyanın həyatında, həm də Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlayıb.

Sonda YAP-ın fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

# Mədəni irsi qorumaq uğrunda

Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) və Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin (MSXƏEBM) birgə təşkilatçılığı ilə Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində “Mədəni irsi qorumaq naminə – 65” adlı regional sərgi-seminar keçirilib.



MSXƏEBM-in direktoru, Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova seminar iştirakçılarını salamlayaraq mərkəzin tarixi və fəaliyyəti haqqında bəhs edib.

Xaçmaz RMİ-nin kommunikasiya meneceri Fərid Musayev bildirib ki, MSXƏEBM ilə regional idarə arasında sıx əlaqə mövcuddur və bu günədək idarənin tabeliyində olan muzeylərin 1000-ə yaxın eksponatı Elmi Bərpa Mərkəzi tərəfindən bərpa və konservasiya edilib.

Digər çıxış edənlər ölkəmizdə muzey sahəsində həyata keçirilən islahatlardan söz açıblar.

Sonda Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasına və MSXƏEBM tərəfindən təşkil edilən regional idarənin tabeliyindəki muzeylərin kolleksiyalarına aid bərpa, konservasiya olunmuş eksponatların fotolarından ibarət sərgiyə baxış keçirilib.



# Vətənin Zəfər ünvanlı ölməz oğulları

İsmayıllıda Gəncə, Bərdə və Tərtər terroru qurbanlarının xatirəsinə həsr edilən “93 can” adlı fləşmob keçirilib. İsmayıllı RMİ və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən fləşmobun məqsədi erməni vandalizminin qurbanlarını yad etmək, döyüş bölgəsindən uzaqda olan mülki əhalini hədəf seçən erməni terrorunu dünya ictimaiyyətinə çatdırmaqdır.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq incəsənət məktəbinin müəllim kollektivi şəhid Tərlan Rzayevin ailəsini ziyarət edib.

RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Vətən müharibəsi şəhidi Vüsal Allahverdiyevin anım mərasimi keçirilib. Şəhidə həsr olunmuş kompozisiya təqdim edilib, şeirlər söylənilib.

***



Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Masallı Dövlət Rəsm Qalereyası və “Ümidim sənsən” Sosial İnkişafa Yardım İctimai Birliyinin birgə təşkilatçılığı ilə Birinci Qarabağ və Vətən müharibəsi qəhrəmanlarının tanıdılması məqsədilə “Vətənin ölməz oğulları” layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Muzeyin direktoru Əntiqə Tağıyeva layihənin əhəmiyyətindən danışıb.

***

Kürdəmir RMİ-nin rəis müavini Vaqif Alıyev 2016-cı ilin Aprel döyüşlərinin şəhid baş leytenantı, “Azərbaycan Bayrağı” ordenli hərbi pilot Əbu Bəkr İsmayılovun anası Rəna İsmayılova ilə görüşüb.




Füzuli rayon Yuxarı Kürdmahmudlu kəndində Vətən müharibəsi şəhidi Məhəmmədəli İsmayıllının şəhadətinin ikinci ildönümü münasibətilə xatirəsinə həsr olunan bulağın açılış mərasimi keçirilib. Tədbirdə Füzuli rayon mədəniyyət müəssisələrinin əməkdaşları da iştirak ediblər.



Beyləqan şəhərində Vətən müharibəsi şəhidi Toğrul Atakişiyevin xatirəsinə inşa olunan bulaq kompleksi istifadəyə verilib.



Tədbirdə şəhidin ailəsi, rayon İcra Hakimiyyətinin nümayəndələri, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhidin hərbçi yoldaşları və şəhər sakinləri iştirak ediblər.

***

Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzində N saylı hərbi hissənin beşinci taborunun yaradılmasının 30 illik yubileyi münasibətilə tədbir keçirilib. Bərdə şəhər şəhid Fərahim Quliyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin kollektivi tərəfindən hazırlanmış vətənpərvərlik mövzusunda bədii hissə maraqla qarşılanıb.

***

Ağstafa RMİ Qazax rayon Heydər Əliyev Mərkəzində Ə.Əhmədov adına Qarapapaq kənd orta məktəbi şagirdlərinin iştirakı ilə “İftixar və qürur günü” başlıqlı tədbir keçirilib.

Qazax rayon Mədəniyyət Mərkəzində 8 Noyabr – Zəfər Gününə həsr edilmiş “Zəfərli Azərbaycanım” adlı konsert proqramı təşkil olunub. “Göyəzən” instrumental ansamblının ifasında Azərbaycana, Zəfərə həsr olunmuş rəngarəng musiqilər səsləndirilib.

Tovuz rayon MKS və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə “Zəfər salnaməsinin şanlı 44 günü” mövzusunda bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə I, II, III yerlərin qaliblərinə fəxri fərmanlar təqdim olunub.

***

Sabirabad RMİ Sabirabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə “Qələbənin ritmi” adlı nağara ifaçılığı müsabiqəsi keçirilib. Müsabiqə uşaq, yeniyetmə və gənclərin istedadlarının üzə çıxarılması, zərb çalğı alətlərinin təbliği, xalqımızın mədəni irsinin qorunması, musiqi mədəniyyətinin inkişafının təmin edilməsi məqsədilə təşkil olunub. Müsabiqənin qaliblərinə Sabirabad rayon Mədəniyyət Mərkəzinin fəxri fərmanı və mükafatları verilib. Digər iştirakçılara isə təşəkkürnamələr təqdim olunub.

***



Şəki RMİ-nin rəisi Azər Yusubov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsinin sədri Rəhman Məmmədov, idarənin əməkdaşları Vətən müharibəsi şəhidləri Eltun Qasımov və İbrahim Məmmədovun ailələrinə baş çəkiblər.

**Hazırladı: N.Məmmədli**

# Gəncədə Türkiyə Cümhuriyyətinin 99 yaşı qeyd olunub



Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) Məhsəti Gəncəvi Mərkəzində Türkiyə Cümhuriyyətinin elan olunmasının (29 oktyabr 1923) 99-cu ildönümü münasibətilə tədbir keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki baş konsulu Nikoloz İaşvili, millət vəkili Pərvin Kərimzadə, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, şəhər ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Baş konsul Zeki Öztürk və Gəncənin icra başçısı Niyazi Bayramovun çıxışlarından sonra Türkiyə Cümhuriyyətinin 99-cu ildönümünə həsr olunan videoçarx nümayiş etdirilib.

Sonda F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının solistləri, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Vasif Bayramovun ifasında konsert proqramı təqdim olunub.

# “Şahidə çevrilmiş şəhid”



Xaçmaz RMİ Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzi və Xaçmaz Xalq teatrının aktyor heyəti Zəfər Günü ərəfəsində “Şahidə çevrilmiş şəhid” tamaşasını təqdim edib.

Səhnə əsəri 1992-ci ildə Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni hadisələri, həmçinin 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbəni özündə əks etdirir. Xaçmaz Xalq teatrının rejissoru İlham Tağıyevin quruluş verdiyi tamaşanın ssenari müəllifi Çingiz Ələsgərlidir.

Tamaşanın nümayişindən sonra Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev teatrın kollektivi ilə görüşüb, səhnə əsərini yüksək qiymətləndirib, kollektivə yaradıcılıq uğurları arzulayıb.

# “Gül və zəhər” tamaşasına ictimai baxış

Oktyabrın 31-də Gəncə Dövlət Dram Teatrının açıq səma altında olan ikinci səhnəsində Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasından “İki loğmanın söhbəti” hekayəti əsasında “Gül və zəhər” tamaşasına ictimai baxış keçirilib.

Səhnələşdirəni Əməkdar incəsənət xadimi, mərhum şair Məmməd Alim (1949-2014) olan tamaşanın quruluşçu rejissoru Yusif Cəfərov, quruluşçu rəssamı Mehdi Hüseynov, işıq rəssamı Şöhrət Mahmudov, musiqi tərtibatçısı Ziyad Abbasovdur.

Baxışda Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda “Qoruqlar arasında təcrübə mübadiləsi və qarşıda duran vəzifələr” mövzusunda tədbir keçirilib. Tədbirdə İlisu, Zaqatala və “Orta əsr Ağsu şəhəri” tarix-mədəniyyət qoruqlarının direktor və əməkdaşları iştirak ediblər.

# Qoruqlar arasında təcrübə mübadiləsi və qarşıda duran vəzifələr

Qəbələ Arxeoloji Mərkəzin akt zalında keçirilən toplantıda əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov qoruğun fəaliyyəti barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən qoruq 1976-cı ildə yaradılıb. Ümumilikdə 420 hektar ərazini əhatə edən qoruq 3 tarixi məkandan – Antik şəhər yeri, Səlbir və Qala ərazilərindən ibarətdir.

Qoruqlar arasında əməkdaşlıq əlaqələrinin qurulmasının, Azərbaycanın tarixinin daha da geniş təbliğ edilməsinin, qoruq ərazisinə gələn turistlərin digər qoruqlara yönəldilməsinin vacibliyini diqqətə çatdıran Zahir Kərimov iş planlarında nəzərdə tutulmuş belə toplantıların qoruq əməkdaşlarının qarşılıqlı fəaliyyətinə töhfə verəcəyinə əminliyini bildirib.

“Orta əsr Ağsu şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Şölə Bayramova, İlisu Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Azər Qocayev və Zaqatala Tarix-Mədəniyyət Qoruğunun direktoru Anar Laçınov rəhbərlik etdikləri qoruqlar haqqında ətraflı məlumat verib, tədbirin təşkilinə görə təşkilatçılara təşəkkürlərini bildiriblər. Çıxışlarda qoruqlar arasında əməkdaşlıq əlaqələrinin qurulmasının əhəmiyyəti və gələcəkdə digər qoruqlarla da bu mövzuda tədbirlərin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Çıxışlardan sonra qoruqlar arasında əlaqələrin daha da genişləndirilməsi məqsədilə qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Toplantının sonunda “Qafqaz Albaniyasının paytaxtı – Qəbələ” filmi nümayiş olunub.

Zaqatala, İlisu və Ağsu qoruqlarının əməkdaşları Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla tanış olublar. Qonaqlar həmçinin qoruğun tarixi məkanlarından olan Antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələrinə baş çəkiblər. Qonaqlara Qəbələ arxeoloji ekspedisiyasının ərazidə arxeoloji qazıntılar, yerli və xarici arxeoloqlar tərəfindən aşkar olunan tapıntılar barədə ətraflı məlumat verilib, sualları cavablandırılıb.

# Daim yaradıcılıq axtarışında olan fırça ustası

**Çağımızın görkəmli fırça ustalarından Xalq rəssamı, professor Arif Hüseynovun oktyabrın 29-da 79 yaşı tamam oldu. Bu münasibətlə Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzində (UGİM) tədbir təşkil edildi.**




Tədbirdə ilk olaraq qonaqlar mərkəzin gənc rəssamlarının Arif Hüseynovun əsərlərinə çəkdiyi illüstrasiyalardan ibarət sərgi ilə tanış oldular.

UGİM-in direktoru Lalə Qəti bildirdi ki, mərkəz məktəbdənkənar təhsil müəssisəsi olaraq uşaq, yeniyetmə və gənclərin estetik zövqlərinin, dünyagörüşlərinin artırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Xalq rəssamı Arif Hüseynovun doğum gününə həsr olunan görüş də bu silsilədəndir: "Arif müəllim uzun illərdir ki, mərkəzin rəssamları ilə sıx dostluq əlaqələri yaradıb. O, folklorumuza, adət-ənənələrə bağlı sənətkarlardandır. Bu tədbirdə də rəssamın nağıllar mövzusunu əsas götürmüşük. Çünki fırça ustasının bu mövzuda silsilə əsərləri var".

Arif Hüseynov təşkil edilən görüşə görə təşəkkürünü bildirdi. Dedi ki, bu yaşına qədər ən gözəl hədiyyə həmkar adlandırdığı gənclərin ona ərməğan etdiyi bugünkü tədbirdir. Uşaqların onun əsərlərinə çəkdiyi rəsmlər böyük dəyərə malikdir.

Sərgiyə baxışdan sonra mərkəzin "Çiçəyim" uşaq teatrının gənc aktyorları rəssamın çəkdiyi nağıl qəhrəmanlarının obrazları ilə səhnəyə çıxdılar. Aktyorların ifasında "Rəssamın rəngləri" adlı qısa səhnəcikdən sonra Xalq yazıçısı Natiq Rəsulzadə, Əməkdar jurnalist Etibar Babayev, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Xalq artisti Təranə Muradova çıxış edərək rəssama cansağlığı arzuladılar. Diqqətə çatdırıldı ki, rəssam öz yaradıcılıq yolunu çoxdan tapsa da, daima axtarışdadır. Onun hər bir əsərində yeni axtarışları aydın görünür. Bu əsərlər gözəl melodiya kimi daim zövqləri zənginləşdirir. Rəssamın yaradıcılığında sosial-siyasi və vətənpərvərlik mövzuları üstünlüyük təşkil edir. İnsani keyfiyyətləri ilə də hər zaman örnəkdir.

Tədbirin sonunda "Mədəniyyət" kanalı tərəfindən lentə alınan "Nağılbazın kələyi" filmi nümayiş olundu. Nümayişdən sonra Arif Hüseynov tədbirə qatılan bütün qonaqlara və gənc istedadlara minnətdarlığını bildirdi.

**Lalə**

# "Əcdadların izi ilə"



*əvvəli səh. 1-də*

Azərbaycan Milli Məclisi Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva müəllifin sərgiyə "Əcdadların izi ilə" adı verməsinin təsadüfi olmadığını dedi: "Bu, onun əcdadların izi ilə getdiyini sübuta yetirir. Ülviyyə Həmzəyeva sənətdə durduğu yerə əcdadların izi ilə gəlib. Onun sənəti milli kimliyə xidmət edir. Ülviyyə Həmzəyeva Naxçıvanda fəaliyyət göstərən və ənənələrimizi gələcək nəsillərə çatdıran əvəzsiz sənətkardır".

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev qeyd etdi ki, Ülviyyə Həmzəyevanın əsərlərində zəngin ənənələri sezmək olar. Naxçıvan rəssamlıq məktəbi üzərində formalaşan bu ənənələr onun əsərlərində geniş əksini tapıb.

Əməkdar incəsənət xadimi Rafiq Kərimov Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovun müəllifə təbrik məktubunu oxuduqdan sonra, rəssama həsr etdiyi şeiri səsləndirdi.

Çıxışlardan sonra Ülviyyə Həmzəyevanın qızı İlknurun tarda ifası tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Sonda Ülviyyə Həmzəyeva sərgiyə toplaşanlara minnətdarlığını bildirdi. Dedi ki, sərgilənən 85 əsərin hər biri müəllifinin reallığıdır: "Bu gün sərgi ilə sizləri Ülviyyə dünyası, Ülviyyə reallığı ilə tanış etmək istədim. Çox şadam ki, Bakıda belə bir sərgim nümayiş olunur".

Sonda müəllif qonaqları sərgi ilə tanışlığa dəvət etdi.

Ülviyyə Tapdıq qızı Həmzəyeva 30 Aprel 1982-ci ildə Babək rayonunun Şəkərabad kəndində anadan olub. 2003-cü ildə Naxçıvan Dövlət Universitetinin (NDU) İncəsənət fakültəsinin təsviri incəsənət ixtisasını bitirib və həmin universitetdə magistr təhsili də alıb. NDU-da pedaqoji fəaliyyətini davam etdirən rəssam hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantıdır.

Rəssamın əsərləri hələ tələbə ikən ABŞ, Türkiyə, Fransa və başqa ölkələrdə müxtəlif sərgilərdə nümayiş etdirilib. Bir sıra yazıçısı Elçinin "Teleskop" əsəri əsasında hazırlanan tamaşalara uğurlu bədii tərtibat verib.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının "Əməkdar rəssamı" fəxri adlarına layiq görülən rəssam Azərbaycan Rəssamlar İttifaqı və UNESCO-nun Beynəlxalq İncəsənət Assosiasiyası və "Yeni Era" Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvüdür.



ölkələrdə keçirilən sərgi, festival və simpoziumlarda iştirak edib, mükafatlara layiq görülüb.

2001-ci ildə NDU-nun gənclik parkında soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin müəllifi olan rəssam Naxçıvan teatrında N.Gəncəvinin "Sirlər xəzinəsi" poeması, M.Meterlinkin "Göy quş" pyesi, Xalq

Ülviyyə Həmzəyeva 2012-ci ildən ənənəvi keçirilən "Naxçıvan – bəşəriyyətin beşiyi" beynəlxalq rəsm festivalının kuratoru və təşkilatçısıdır. O, IV çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olub, hazırda Azərbaycan Milli Məclisinin üzvüdür.

Rəssamın "Əcdadların izi ilə" adlı sərgisi noyabrın 1-də başa çatıb.

# Xalq artisti Mələkxanım Əyyubovanın yaradıcılıq gecəsi

**Beynəlxalq Muğam Mərkəzi (BMM) və AMEA Folklor İnstitutu "Dədə Qorqud" (keçmiş "İrs") ansamblının təşkilatçılığı ilə tanınmış xanəndə, Xalq artisti, professor Mələkxanım Əyyubovanın 60 illiyinə həsr olunan yaradıcılıq gecəsi keçirildi.**

Xan Şuşinski Fondunun birgə iştirakı ilə hazırlanan gecədə tanınmış mədəniyyət, incəsənət və elm xadimləri iştirak edirdi.

İlk olaraq Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov nazir Anar Kərimovun Xalq artistinə təbrik məktubunu oxudu. Məktubda xanəndənin muğam sənətinin inkişafında və gənc nəslə ötürülməsində xidmətləri, habelə sənətkarın özünəməxsus ifaçılıq üslubu qeyd olunur.



Məktubda nazir sənətkara xoş arzularını çatdırır, yeni yaradıcılıq uğurları arzulayır. Sektor müdiri həmçinin Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlunun da təbrik məktubunu xanəndəyə təqdim etdi.

Sonra gecənin aparıcısı, Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev səhnəyə çıxaraq Mələkxanım Əyyubovanın yaradıcılıq yolundan söz açdı, muğam ustasını səhnəyə dəvət etdi.

Xalq artisti, tarzən Möhlət Müslümovun rəhbərlik etdiyi Əhmədxan Bakıxanov adına Xalq çalğı alətləri ansamblının müşayiəti ilə səhnədə ilk musiqi nömrəsi ilə tamaşaçıları salamladı.

Xalq artistləri Alim Qasımov, Mənsum İbrahimov, Səkinə İsmayılova və başqaları sənətkara təbriklərini ünvanladılar.

Yaradıcılıq gecəsi rəngarəng musiqi nömrələrinin səsləndirilməsi ilə yadda qaldı.

**L.Azəri**

# Maestro Rauf Abdullayevin 85 yaşı tamam oldu

**Xalq artisti, Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, "Şöhrət", "Şərəf", "İstiqlal" ordenli, Azərbaycan Respublikasının Dövlət mükafatı və Heydər Əliyev Fondunun "Qızıl çinar" beynəlxalq mükafatının laureatı Rauf Abdullayevin oktyabrın 29-da 85 yaşı tamam oldu.**

Maestro yubileyi ərəfəsində Azərbaycan Respublikasının daha bir təltifinə layiq görülüb.

Prezident İlham Əliyevin oktyabrın 28-də imzaladığı sərəncamla Rauf Canbaxış oğlu Abdullayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş dirijor Rauf Abdullayevi 85 illik yubileyi münasibətilə təbrik edib. Birinci vitse-prezident təbrik paylaşımında görkəmli sənətkara ən xoş arzularını ifadə edib. "Çoxillik əməyinizə, incəsənətə sədaqətlə xidmətinizə, milli musiqi mədəniyyətimizin inkişafına verdiyiniz böyük töhfələrə görə çox sağ olun!", – deyə təbrikdə vurğulanır.

***



Oktyabrın 28-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov yubilyarla görüşüb.

Rauf Abdullayevi anadan olmasının 85 illiyi münasibətilə təbrik edən Anar Kərimov ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Azərbaycan mədəniyyətində xüsusi yeri olan sənətkar yeni layihələr və gənc nəslin musiqi zövqünün formalaşmasında həyata keçirilən tədbirlərdən, gənc və istedadlı musiqiçi nəslinin doğru istiqamətləndirilməsi yönündə aparılan işlərdən söhbət açıb.

Maestronu "Mədəniyyət" qəzetinin kollektivi adından da təbrik edir, ona bundan sonra da dirijor pultu arxasında sürəkli tamaşaçı alqışları arzulayırıq...

# BMA-da Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş konsert

**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Opera studiyasında Azərbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun (1922-1984) 100 illik yubileyinə həsr olunmuş "Musiqi naminə həyat" adlı konsert keçirilib.**



Konsert proqramı Bakıdakı Rus Evi – Rusiya İnformasiya Mədəniyyət Mərkəzi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və BMA-nın dəstəyi ilə "Stolitsa" RT teatrının direktoru, "Bakı" Müəllif Mahnıları Klubunun vitse-prezidenti Vəfa Qavrilova-Məmmədova tərəfindən təşkil olunub.

Konsert proqramında beynəlxalq müsabiqələr və festivallar laureatları – Əminə Zülfüqarova, Nigar Həsənova, Mahir Tağızadə, Əzizə Ağazadə, Adil Axundov, Cəmalə Abdinzadə, Nailə Xasiyeva, Fəqan Həsənli, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri Samir Səmədov, Fatimə Xələfova, Azərbaycanın Əməkdar artistləri Cəmilə Kərimova, Aleksey Miltıx, Sahib Paşazadə, Nərgiz Əliyeva, "Sabah" xoru (bədii rəhbər və dirijor Dmitri Babayev) iştirak ediblər.

Rusiya İnformasiya Mədəniyyət Mərkəzinin direktoru İrek Zinnurov konsertin iştirakçısı olan musiqiçilərə təşəkkür edib.

Sonda Fikrət Əmirovun qızı Sevil xanım konsertin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

# "Yeni adlar"da piano və violonçelin dueti

**Mədəniyyət Nazirliyi milli musiqimizin qorunması, ifaçılıq sənətinin inkişafı və təbliği istiqamətində mühüm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan musiqi mədəniyyətinin gənclər arasında təbliğini, musiqi və estetik zövqünün formalaşmasına dəstək olmağı hədəfləyir, istedadlı gənclərin üzə çıxmasına təkan verir, onların geniş auditoriyada tanınmasına yardımçı olur. Nazirliyin bu ilin mart ayından reallaşdırdığı "Yeni adlar" layihəsi də onlardan biridir.**

Oktyabrın 28-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Yeni adlar" layihəsinin növbəti konserti keçirildi.

Musiqi axşamında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Orxan Həşimov) müşayiəti ilə gənc musiqiçilər – respublika və beynəlxalq müsabiqələr laureatları Vaqif Qurbanov (violonçel) və Elxan Niftiyev (piano) maraqlı proqramla çıxış etdilər.

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər vardı.

Konsertdə Vaqif Qurbanovun ifasında Yozef Haydnın "Violonçel və orkestr üçün konsert"i, Elxan Niftiyevin təqdimatında isə Ferents Listin "Piano və orkestr üçün konsert" əsərləri alqışlarla qarşılandı. İstedadlı gənclər hər iki əsərin yüksək peşəkarlıqla tamaşaçılara çatdırılması üçün məharətlərini ortaya qoydular.

***

Vaqif Qurbanov 2006-cı ildə Bakı şəhərində dünyaya göz açıb. 2012-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin cello ixtisasına qəbul olunub. Hazırda həmin məktəbin XI sinfində təh-







sil alır. Təhsil aldığı illərdə bir çox müsabiqələrdə iştirak edən musiqiçi 2018-ci ildə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr edilmiş III Respublika müsabiqəsində I yerə layiq görülüb. Bununla yanaşı, "Gələcəyin ulduzları" (Future Stars) IX Beynəlxalq klassik musiqi müsabiqəsi və "World Harmony" beynəlxalq müsabiqəsində I yeri qazanıb.

Gənc ifaçı Azərbaycandan kənarda da nailiyyətlər əldə edib. Yunanıstanda keçirilən "Stars of Greece" beynəlxalq müsabiqəsi, Çexiyada "Spring Symphony" müsabiqəsi və Ukraynada təşkil olunan "Sozvezdiye Europe-Asia –2021" beynəlxalq festivalında Qran-priyə layiq görülüb. O, həmçinin İtaliyada keçirilən "Racconto Di Primavera", İspaniyada "World Art Games", Rusiyada "Radio Golos Planeta", "Zvezda efira", Polşada "King's peak international music competition", "Rapsodia Polska" müsabiqələri və Finlandiyada təşkil olunan "Nordic Fest – 2021" festivalında I yerləri qazanıb.

"Yeni adlar"ın digər iştirakçısı Elxan Niftiyev 1998-ci ildə Lənkəran şəhərində anadan olub. 2016-cı ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini piano sinfi üzrə fərqlənmə ilə bitirib. 2016-2020-ci illərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında bakalavr, 2020-2022-ci illərdə isə magistr pilləsi üzrə təhsil alıb.

Elxan Bülbül adına məktəbdə təhsil aldığı illərdə (2009-2012) Pianoçuların Respublika müsabiqəsinin laureatı olub. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil aldığı dövrlərdə isə bir neçə dəfə solo konsert verib. Pianoçu 2017-ci ildə IX Qəbələ Beynəlxalq Musiqi Festivalında, eləcə də XII Qəbələ Musiqi Festivalında çıxış edib.

Elxan Niftiyev Estoniyada keçirilən Şopen adına pianoçuların beynəlxalq müsabiqəsində, İngiltərədə pianoçuların beynəlxalq müsabiqəsində, Fransada Adilə Əliyeva adına pianoçuların beynəlxalq müsabiqəsində laureat olub.

**Nurəddin**

## "Abidələri qoruyan xalq"

### ATMU-nun dekanı Türküstandakı konfransda məruzə ilə çıxış edib

Qazaxıstanın Türküstan şəhərində "Abidələri qoruyan xalq" adlı beynəlxalq konfrans keçirilib.

Qazaxıstan UNESCO və ICESCO üzrə Milli komissiyaları, Beynəlxalq Turizm və Qonaqpərvərlik Universiteti, Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türk Universiteti, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmaları Mərkəzi (IRCICA) və digər qurumların iştirakı ilə 26-28 oktyabr tarixində gerçəkləşən konfransın bölmə iclaslarında Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) Turizm və qonaqpərvərlik fakültəsinin dekanı, dosent Bahadur Bilalov da iştirak edib.

ATMU-dan verilən məlumata görə, o, konfransın ikinci iş günündə "Azərbaycanda dini turizm obyektləri" mövzusunda məruzə edib, sonra isə yerli KİV üçün müsahibə verib. Konfransın işində iştirakına görə B.Bilalov Türküstandakı Beynəlxalq Turizm və Qonaqpərvərlik Universitetinin rektoru tərəfindən diploma layiq görülüb.

Konfransın sonunda "Müqəddəs obyektlərdə davamlı turizmin inkişafı" adlı Türküstan bəyannaməsi qəbul edilib.

## Hüseyn Abbaszadənin "General"ı, nəhayət, latın qrafikasında

Noyabrın 22-də Xalq yazıçısı Hüseyn Abbaszadənin (1922-2007) 100 illik yubileyi tamam olacaq. Yaradıcılığa bilavasitə iştirakçısı olduğu II Dünya müharibəsi illərində vətənpərvər ruhlu şeirləri ilə başlayan ədib bu mövzuya sonralar da sadiq qalır, zaman-zaman oxucularına Vətən sevgisi, fədakarlıq, igidlik hissləri aşılayan roman və hekayələr qələmə alıb.




Hüseyn Abbaszadənin "General", "Burulğanlar", "Ləpədöyəndə", "Haradansınız, müsyö Abel?", "Qaradağ əhvalatı", "Evə kölgə düşür", "Uzaqdan gələn qonaq" və s. əsərləri milli koloriti, həqiqiliyi, hər dövrün oxucusu ilə onun dilində danışmaq bacarığıyla bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Əfsanəvi Azərbaycan generalı, tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun igidliyi və hərbi rəşədətindən bəhs edən "General" romanı milli ədəbiyyatımızda hərbi vətənpərvərlik mövzusunda yazılmış nadir sənədli-tarixi əsərlərdəndir.

Ədibin 100 illiyinə töhfə olaraq roman Dövlət Tərcümə Mərkəzi tərəfindən ilk dəfə latın qrafikasında nəşr edilib.

Qeyd edək ki, 2006-cı ildə H.Abbaszadənin "Seçilmiş əsərləri" ikicildliyi latın qrafikasında işıq üzü görsə də, həmin nəşrdə "General" romanı yer almamışdı.

Kitabı yaxın günlərdə Bakının kitab evləri və mağazalarından əldə etmək olar.

## "Ana, şəhid olmaq nə gözəl imiş..."

### General Polad Həşimovun dəfnindən evə qayıdan Fərhad Babayev belə demişdi...

Vətən müharibəsində şəhid olan qəhrəmanlarımız haqqında məlumat verməyə davam edirik. Bu yazıda əsir torpaqlarımızı düşməndən qurtarmaq üçün cəbhəyə könüllü gedənlərdən şəhid əsgər Fərhad Babayevi yada salacağıq.

Fərhad Məhərrəm oğlu Babayev 1992-ci il yanvarın 30-da Bakı şəhərində anadan olub. 1998-2010-cu illərdə Bakı şəhəri Suraxanı rayonu Pərviz İsmayılov adına 278 saylı tam orta məktəbdə təhsil alıb. Sonra Qazax rayonunda N saylı hərbi hissədə xidmətdə olub.

2020-ci ilin Vətən müharibəsi başlayandan bir gün sonra könüllü olaraq cəbhəyə yollanıb. Füzuli, Xocavənd və Qubadlının azadlığı uğrunda döyüşlərdə iştirak edib. Fərhad oktyabrın 24-də Qubadlı istiqamətində döyüşlərdə qəhrəmancasına şəhid olub, Siyəzən şəhər qəbiristanlığında torpağa tapşırılıb. Ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", Xocavənd və Füzulinin azad olunmasına görə medallarla təltif edilib.

Şəhidin anası Səmayə Babayeva Fərhadın hələ Milli Qəhrəman, general-mayor Polad Həşimovun dəfnindəki (15 iyul 2020) izdihamı görüb özünə şəhidlik arzuladığını deyir: "Fərhad şəhid olana qədər mən bilmirdim ki, orduya könüllü yazılıb. Elə bilirdim ki, hərbi komissarlıq çağırıb. Fərhad Polad Həşimov şəhid olanda yoldaşları ilə birgə onun dəfn mərasiminə getmişdi. Evə gələndə dedi ki, ana, şəhid olmaq nə gözəl şey imiş. İnşallah, şəhidlik bizə də qismət olar. İnsan nəyi içdən arzulayırsa, ona da nail olur. Fərhad müharibəyə gedəndə ona çox yalvardım ki, bala, bəlkə getməyəsən. O, isə dedi, "Ana, mən getməyim, o getməsin, bəs kim getsin?!".



Fərhadın yaxşı səsi olduğunu vurğulayan Səmayə xanım zaman-zaman oğluna musiqi yarışmalarına qatılmasını da məsləhət gördüyünü söyləyir: "Fərhad "Qaragilə" xalq mahnısını çox sevirdi. Hər dəfə onun məzarını ziyarət edəndə həmin mahnını qəbri üstə oxuyuram: "Gəlmişəm otağına, Qaragilə, oyadam səni...". Amma nə qədər haraylayırsa, balam oyanmır...".

Şəhidin qardaşı Zamiq Babayev Fərhadla qürur duyduğunu bildirir: "Fərhadı özüm müharibəyə yola saldım, öz əlimlə də nəşini gətirdim. Bir qardaş kimi mənə çox ağırdır. Üzündə qəribə bir təbəssüm vardı. Sanki ölümün üzünə gülür, arzuladığı şəhadətə yüksəldiyi üçün özünü xoşbəxt hiss edirdi. Əslində, şəhidlərin içində qardaşımı axtaranda hamısının üzündə təbəssüm gördüm. Elə bil gülə-gülə yatmışdılar, şəhidliklə bərabər nur gəlmişdi üzlərinə. Vaxt var idi ki, Fərhadı görənlər "Zamiqin qardaşıdır" deyirdilər. İndi mənə deyirlər ki, "Sən Fərhadın qardaşısan". Mənim üçün bundan böyük şərəf yoxdur".

Şəhidin bacısı Aysel Süleymanova Fərhadın ona həm də ata kimi yanaşdığını deyir: "Ailəmizin kiçiyi olsa da, Fərhadda ata qayğısı vardı. Qardaş, sözün əsl mənasında, bacıya dayaqdır. Gedişi ilə elə bir boşluq buraxıb ki, arxasında, onu heç kim doldura bilməz. Allah heç bir bacıya qardaş dağı çəkdirməsin".

Həyat təsadüflərlə doludur və bu, bəzən acı təsadüf olur. Aysel xanım Fərhadın Vətən müharibəsinə yollanmazdan əvvəl telefonlarını, saatını çıxarıb evdə televizorun yanında qoyub getdiyini bildirir: "Anamgilə gələndə Fərhadın saatını qoluma taxdım. Fərhad şəhid olan gün, oktyabrın 24-də gördüm ki, saatı da dayanıb. Allah Fərhada və bütün şəhidlərimizə rəhmət eləsin".

Ölkəmizin ərazi bütövlüyü Vətən üçün canını və qanını əsirgəməyən igidlərin sayəsində bərpa olundu. Bu gün yağıdan azad edilmiş ərazilərdə üçrəngli bayrağımız dalğalanırsa, biz şəhid və qazilərimizə, qəhrəman oğullarımıza minnətdarıq.

Allah rəhmət eləsin.

**Nurəddin**

## Salyanlı Şirin

### Görkəmli tarzən "Leyli və Məcnun"un ilk tamaşasında ifa etmişdi



Azərbaycan tar ifaçılığında adsan qazanan sənətkarlar təkcə bu alətin deyil, həm də bütövlükdə milli musiqinin, muğamın inkişafına töhfə vermiş sayılırlar. Bu mənada görkəmli tarzən Şirin Axundovun da adı XX əsrin birinci yarısında klassik musiqimizin təbliğatçıları arasında hörmətlə çəkilir. Bir sıra ustad xanəndələri məharətlə müşayiət edən tarzən eyni zamanda teatr tamaşalarında da musiqilər səsləndirib.

Şirin Məşədi Hüseyn oğlu Axundov 1878-ci ildə Salyanda dünyaya göz açıb. Kiçik yaşlarından musiqiyə maraq göstərir. Bir neçə alətdə ifa etməyə səy göstərir; qarmon, saz, nəhayət, 15-16 yaşlarında tar çalmağı öyrənir. Araşdırmalarda qeyd edilir ki, qatı dindar olan atası Şirinin musiqiyə meyil etməsi ilə barışa bilmir. Hətta bir gün oğlunun əlindən tarı alıb "Şeytan əməlidir" deyə ağaca çırpıb sındırır... Deyilənə görə, ata ilə oğul arasında inciklik baş verdiyi gün görkəmli xanəndə Cabbar Qaryağdıoğlu öz dəstəsi ilə Salyana toy məclisinə gəlir. Məclis başa çatdıqdan sonra şəhərin musiqi həvəskarları Cabbardan xahiş edirlər ki, Şirinin tar çalmasına qulaq assın. O, musiqi həvəskarlarının xahişini eşidir və Şirinin tar çalmasına razılıq verir. Şirinin ifası sənətkara xoş gəlir. Muğam ustadı ona Bakıya gəlib tarzənlik sənətini davam etdirməyi məsləhət görür.

Görkəmli sənətkarın məsləhəti gənc tarzənin sənətə həvəsini birəbeş artırır. Günlərin bir günü anası Zərəfşan xanımla Bakıya gəlir. Arayır-axtarıb Cabbar Qaryağdıoğlunu tapırlar. Həmin vaxt sənətkar Bakı kəndlərindən birində toy məclisində olur. O, elə həmin gün gənc tarzəni öz dəstəsinə qoşur. Şirin məclislərdə xanəndələrin yanıqlı guşələrinə diqqət yetirir. Evə dönərkən həmin guşələri tarda təkrar-təkrar ifa edir...

Şirin Axundov 1901-1902-ci illərdə Bakı kəndlərində məclislərə qatılır, bakılı xanəndələrdən Məşədi Məmməd və Əli Sahibi tarda müşayiət edir. Məclislərin birində Məşədi Hüseynqulu adlı bir tacirlə tanış olur. Onun vasitəsilə Hacı Zeynalabdin Tağıyevin "Güzgülü zal"ında qurulan məclislərə gedir. 1903-cü ildə məşhur xanəndə Şəkili Ələsgərlə görüşür, aralarında dostluq münasibətləri yaranır. O zaman onların musiqi dəstəsi Bakıda Cabbar Qaryağdıoğlunun dəstəsindən sonra ikinci ən tanınmış kollektiv idi. Ələsgərin məlahətli səsi, Şirinin şirin təranəli barmaqları dinləyiciləri vəcdə gətirir... Onu da qeyd edək ki, Şirin müxtəlif vaxtlarda Seyid Mirbabayevi, İslam Abdullayevi, Cabbar Qaryağdıoğlunu, Bülbülü və son illərdə isə Seyid Şuşinskini tarda müşayiət edib, xalq arasında "Salyanlı Şirin" kimi geniş şöhrət qazanıb.

Şirin Axundov milli teatrımızın inkişafında da müəyyən xidmətlər göstərib. 1905-ci ilin dekabr ayında Bakıda M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyası tamaşaya qoyularkən Şirin və xanəndə Ələsgər həmin tamaşanı maraqlı ifaları ilə müşayiət ediblər. Şirin uzun illər H.Z.Tağıyev teatrında göstərilən tamaşaların fasilələrində tarda ifa edib. Bir çox hallarda isə teatrın orkestri onun rəhbərliyində konsert verib. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında (12 yanvar 1908-ci il) orkestrin tərkibində əsas tarçalanlardan biri də Salyanlı Şirin idi.

Musiqişünas, Əməkdar incəsənət xadimi Firidun Şuşinski mövzu ilə bağlı araşdırmasında yazır ki, 1914-cü ildə Macarıstanın "Premer-Rekord" firması Qafqaz musiqiçilərindən bir qrupunu Bakıya dəvət edir. Onların ifalarını lentə yazdırır. Şirin Axundovun ifasında "Çahargah", "Mirzə Hüseyn segahı", "Hasar" və "Müxalif" muğamları qrammofon valına köçürülür.

Şirin Axundov 1920-1921-ci illərdə Bakıda Şərq konservatoriyasında tar müəllimi kimi çalışıb. O, 1923-1926-cı illərdə fəhlə klublarında tar dərnəyi açır. Öz təcrübəsini həvəskar fəhlə-gənclərə öyrədir. Səhhətində problem yaransa da, musiqidən bir an belə ayrılmır. Tar ifaçılıq sənətinin inkişafı və təbliği üçün böyük səylər göstərir.

Azərbaycan musiqisinin vurğunu olan sənətkar tar alətinin daha geniş təbliğinə töhfələr verə bilərdi. Ancaq vaxtsız ölüm onun bütün planlarının üstündən qara xətt çəkir. İstedadlı sənətkar 1927-ci ildə, 49 yaşında vəfat edir.

**Savalan Fərəcov**

## Ətrini "duy"mayan "Boy çiçəyi"ni dərməsin...

### Səhnə əsəri nisgilli məhəbbət dastanı, mümkünsüz eşqin məngənəsi, cəsarətli duyğuların uçurumdan intiharıdır



Milli teatrımızın insan duyğularına toxunaraq, onları təzadların buxovunda təqdim edə bilən ən yaxşı nümunələrindən biri – Xalq yazıçısı İlyas Əfəndiyevin qələmə aldığı bu pyes ilk dəfə uzaq 1964-cü ildə Akademik Milli Dram Teatrının səhnəsində görkəmli rejissor Tofiq Kazımovun quruluşunda "Sən həmişə mənimləsən" adı ilə səhnəyə qoyulub. Məhz onunla Azərbaycan teatrında lirik-psixoloji üslubа geniş meydan açılıb və sonrakı illərdə "Boy çiçəyi" adı ilə müxtəlif səhnə yozumlarında tamaşaçı qarşısına çıxıb.

Oktyabrın 22-də Şuşa Dövlət Musiqili Dram Teatrında bu əsərin növbəti səhnə yozumuna baxdıq. Tamaşaya premyera da demək olar. Çünki bir neçə il öncə cəmi bir dəfə, Dövlət Mahnı Teatrında oynanılan (o zaman Şuşa teatrının binası əsaslı təmirdə idi) tamaşa uzun fasilədən sonra yenidən tamaşaçı ilə görüşə bildi.

Əməkdar artist, teatrın baş rejissoru Loğman Kərimovun quruluşunda təqdim olunan tamaşa 4 aktyorluq oyun üçün hesablanıb. Əlavə personajları səhnə əsərindən çıxaran rejissor bununla tamaşaçısını qısa zamanda (birhissəli tamaşa – 1 saat 15 dəqiqə) əsas ideya axını ilə baş-başa qoymağa çalışır.

Sadə tərtibatlı tamaşanın quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artist Azad Məmmədovdur. Rolları Zəhra Salayeva (Nargilə), Əməkdar artist Nazir Rüstəmov (Həsənzadə), Püstəxanım Zeynalova (Nəzakət), Əməkdar artist Azad Məmmədov (Fərəc) ifa edirlər.

Ata qayğısından məhrum Nargilənin zavod direktoru Həsənzadəyə məhəbbətindən bəhs olunan tamaşada cərəyan edən hadisələri bu günümüzlə səsləşdirməyə çalışan rejissor tərtibat və səhnə həllində də bu cəhdini qüvvətləndirmək istəyib. Səhnə əsərində Ağa Laçınlının şeirlərindən, Tomazo Albinoni, Yanni Xrisomallis və Nino Rotanın musiqilərindən, ölməz Rəşid Behbudovun ifasında "Küçələrə su səpmişəm" Azərbaycan xalq mahnısından istifadə olunub.

Amma quruluş həllindən aktyor oyununa qədər tamaşanı çaş-baş qoyan, onu sadə yolu dolanbaclardan keçirməklə aziyyətə salan məqamlar da yox deyil. Bir az sərt alınsa da, məncə, xüsusən əsas qəhrəman Həsənzadə sayəsində biz yaxşı, hətta çoxdan darıxdığımız radio-tamaşa "izləmiş" olduq. Bu məsələyə az sonra qayıdarıq. İndi keçək səhnə əsərindəki ixtisarların mahiyyətinə...

Birincisi, bu əsər özlüyündə tamaşaçı üçün qəti darıxdırıcı deyil və müxtəlif münasibətlərin səhnə transplantasiyasında heç bir uyğunsuzluq yaratmır. Dramaturgiyanın qaydalarını dəqiqliklə bilən, pyesin texnikasına peşəkarcasına bələd olan müəllifin məhz bu əsərində istənilən müdaxilə qüsurlu görünür. Bu mənada, tamaşa asanlıqla qurula bilən pazlın əsas hissəsini itirməklə yadda qaldı.

Məsələn, götürək məkan həllini. Hərçənd Loğman müəllim çarpaz, çoxmərtəbəli mizanlar qurmaqda kifayət qədər təcrübəli rejissordur və bu tamaşada da uğurlu formanı seçmişdi: iki məkan-otağı (Həsənzadənin mənzili, Nargilənin ata mənzili) eyni anda seyrçilərə çatdırmaqla lirik-psixoloji ahəngli tamaşaya çeviklik verə bilmişdi. Həsənzadənin otağı səhnənin sağında, Nargilənin otağı yuxarı başda, onun ata evinin qonaq otağı isə solda idi. Bura qədər hər şey aydındır. Xəyali planların, realliqla illüziyalar arasındakı keçidlərin də olmadığını nəzərə alsaq, konkret məkan var və onun giriş nöqtəsi, sözsüz ki, səhnənin sağ tərəfidir. Yəni Həsənzadənin evi. Niyə məhz ora? Çünki bütün hadisələrin əsas özəyi oradır. İnsafən Nargilə və Həsənzadə üçün də. Amma real obraz Nəzakət xanım hər iki künclərdən rahatlıqla istifadə edir. Tamaşaçı bir dəfə də olsun ata evinin qapısından çıxmayan Nargilədən fərqli olaraq anasını o pərdədən bu pərdəyə, o kulisdən bu kulisə inteqrasiyasına məəttəl qalır.

Müasirlik ilə əsərin yazıldığı dövrə keçidlərdə də əksər detallar unudulmuşdu. Məsələn, Həsənzadənin evində texniki tərəqqi "yaşanır". O, direktor olduğu zavodda Nargiləni kompüter proqramçısı təyin edir. Üstəlik direktorun mobil telefonu da susmaq bilmir. Kabelsiz qulaqcıqlar da qızcığazın boynundan asılı qalır. Daim cins şalvarda gəzir, göbəyi də çöldə. Belə müasir qız anasının "Sabah dərziyə gedərik, ikimizə də qəşəng don tikdirərik" təklifinə atılıb-düşür, daha "mall"-filan istəmir.

Tərtibatda da nəzərəçarpacaq qüsurlar boy verməyşdi. Ən sadəsi. Biz tamaşaçılar Həsənzadənin tamaşa boyu xəyali ünsiyyət qurduğu xanımının şəklini tapmadıq. Yəqin tərtibatçılar, səhnə quraşdırıcıları özləri baxmaq istəyiblər və ona görə də yönünü kulisə çeviriblər. Diqqətli tamaşaçıları çıxsaq (təbii ki, ön sıradakı son oturacaqlar), qalanları Həsənzadənin divara danışdığını zənn eldi.

Ümumi ahəngi pozan məqamlar bunlarla da kifayətlənmədi. Xüsusən Həsənzadənin məhdud hərəkət arealındakı eyniyyətin ən son həddi idi. Çiyinlərini əyib, əllərini gah çənəsinə dayayan, gah ciblərində gizlədən, gah da dəxilsiz olaraq ora-bura yellədən aktyor elə bil israrla "Səsimə qulaq asın, qalanı ilə işiniz yoxdur" deyirdi. Nəticədə 47 yaşlı Həsənzadəni 80-ni təzə salamlamış qoca kişi kimi o tərəf-bu tərəfə "sürüyüb", canına cəfa verdi.

Ana Nəzakət də tipik isterikasında idi. Yadımda dönə-dönə dediyi "Nargilə, mən səni doğmuşam" sözləri ilə qalan aktrisa sanki, analıq hissini doğum evindəki ağrı ilə isbat etmək istəyirdi. Aktrisa sanki energetikasını, tamaşaçı ilə ünsiyyət üçün rahat olacaq digər oyun texnikalarını səhnənin arxasında bərk-bərk gizlətmişdi.

Elə dramaturqdan fərqli olaraq, rejissorun bizə mağmın kimi göstərdiyi Fərəc də. Bu personaj o qədər ixtisar olunmuşdu ki, biz onun əslində, nə istədiyini və hansı səbəblərə görə əclaf, rəzil bir adam olduğunu anlamadıq. Səhnədə bir-iki dəfə göründü və aktyor heç cürə oyun özəlliyini sərgiləmədi.

Amma məni ən çox mütəəssir edən Nargilənin titrək qəlbindən qopan sevgi, rəğbət hissinə etinasız Həsənzadə idi. Aktyor sanki tərəf-müqabilinin qəhrəmanı kütbeyin qız hesab edir və onun hisslərinə sadəcə, gülür. Əslində isə bu, kökündən yanlış, hətta müəllifə, əsərə, ana xətdə böyük haqsızlıqdır. Ümumən istedadlı və kifayət qədər təcrübəli N.Rüstəmovun bu tamaşadakı oyunsuzluğu mənim üçün qaranlıq qalan ən əsas məqamdır. Düşünürəm ki, budəfəki səhnə aktının sönükluyündə və aktrisa kimi texniki çevikliyinə görə illər əvvəl diqqətimi çəkən Z.Salayevanın oyunun təsirsizliyində tərəf-müqabilinin "xidməti" böyükdür.

Məncə, rejissorun tamaşadakı ideyaları görünəndən fərqli olaraq, daha orijinal və əhatəli təsviri idi.

Məsələn, Nargilənin bütün günü otağında qalması, tək sirdaşının qulaqcığının olması onun anası, eləcə də insanlarla arasında yaranan uçurumun təsviri idi.

Rejissorun ixtisarlar edib, poetik nümunələrlə Həsənzadə obrazına verdiyi yozum dərin psixoloji qatda əvvəlki quruluşlardan fərqi göstərməyə hesablanmış incə məqamdır. Bu halda Həsənzadə üçün vaxtsız itirdiyi həyat yoldaşı Xurşud xanımla, xaricə yola saldığı oğlu Aydınla bağlı qayğılı xatirələrin ifadəsində səmimiyyət, canlılıq daha emosional təsirə hesablanıb. Məşhur "Ac hərflər"də deyildiyi kimi, "Hə, noolsun". Aktyor onu israrla ətraf mühitdən, eləcə də real həyatdan təcrid edilmiş şəkildə oynadı. Nargiləyə münasibəti də qupquru idi.

Əslində, çox yəqin ki, rejissor Həsənzadənin ülvi duyğusunu ikinci planda, daha həzin qatda verməklə birinci plana insanlıq, vicdan, səmimiyyətin ifadəsini çıxarmaq istəmişdi. Amma... Aktyor bu fikri emosional həssaslıqda deyil, etinasızlıqda duymuşdu. Bilmirəm, bəlkə elə düzü budur. Həsənzadə demiş, yoxsa mən insan məhəbbətinin qüdrətinə inanmağı yadırğamışam?...

**Həmidə Nizamiqızı**

# "Start-2023" film layihəsi müsabiqəsi elan edilib

## Debüt filmini çəkmək istəyən rejissorlar üçün

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası "Start-2023" adlı film layihəsi müsabiqəsi elan edib.



Kinostudiyadan verilən məlumata görə, milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq və bu istiqamətdə çalışan gənc rejissorların fəaliyyətini stimullaşdırmaq, eləcə də kino mühitinə yeni adlar qazandırmaq məqsədilə keçirilən müsabiqəyə tammetrajlı bədii, qısametrajlı bədii və qısametrajlı animasiya film layihələri qəbul olunur.

Müsabiqə müraciət olunan kateqoriyada debüt (birinci və ya ikinci) filmini çəkmək istəyən rejissorlar üçün nəzərdə tutulub. Filmlər üçün janr və mövzu məhdudiyyəti yoxdur.

Sənədlərin qəbulu noyabrın 1-dən yanvarın 31-dək elektron şəkildə musabiqe@azerbaijanfilm.az poçt ünvanı vasitəsilə aparılır.

Layihələr "Azərbaycanfilm" Kinostudiyası nəzdində yaradılmış Ekspert şurası tərəfindən seçiləcək və qaliblər gələn ilin aprel ayında elan ediləcək. Qalib layihələrin gələcəkdə kinostudiyada istehsala buraxılması nəzərdə tutulur.

Müsabiqənin reqlamenti ilə daha ətraflı layihənin saytında tanış olmaq olar.

# Milli Azərbaycan Tarixi Muzeyində "Azad Şuşanın ilk qarı"



Milli Azərbaycan Tarixi Muzeyində "Azad Şuşanın ilk qarı" adlı fotosərgi təşkil edilib.

Oktyabrın 28-də açılışı olan sərgidə muzeyin əməkdaşı, tanınmış fotoqraf Mirnaib Həsənoğlunun Vətən müharibəsindən sonra – 2020-ci il dekabrın 18-də azad Şuşaya yağan ilk qarın təsvirləri olan fotoları nümayiş olunur.

Muzeyin Beynəlxalq əlaqələr və ictimaiyyətlə iş şöbəsinin baş mütəxəssisi Zümrüd İsmayılova sərgi haqqında ümumi məlumat verib.

Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru Fərhad Cabbarov nümayiş edilən fotoların tarixi önəmindən danışıb. Qeyd edib ki, Mirnaib Həsənoğlunun çəkdiyi fotolar doğma Şuşanın qış fəslində möhtəşəm mənzərəsini insanlara çatdırır: "Sərgi çox rəmzi dövrə təsadüf edir. Həm "Şuşa İli"nə, həm də Zəfərimizin ikinci ildönümünə həsr olunub. Bu sərgi bütün ziyarətçilərin marağına səbəb olacaq".

F.Cabbarov fotoqrafa gələcək yaradıcılıq fəaliyyətində uğurlar arzulayıb.

Mirnaib Həsənoğlu çıxış edərək nümayiş olunan fotoların ərsəyə gəlməsindən söz açıb. Bildirib ki, sərgidə 50-dən artıq foto yer alır. Müəllif tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür edib.

# Milli təsviri sənət tarixində QARABAĞ MƏNZƏRƏLƏRİ



Azərbaycanın füsunkar təbiəti hər zaman sənətkarlarımız üçün ilham mənbəyi olmuş, onlara yaradıcılıq ruhu bəxş etmişdir. Orta əsr təzkirəçilərinin mətnlərində Azərbaycan torpaqları münbit, suyu və havası şəfalı olan cənnət-məkan bir ölkə kimi təsvir edilmişdir. Bu torpaqların yetişdirdiyi sənətkarlar da doğma yurdun təbiətini ədəbi əsərlərdə, musiqilərdə, rəsmlərdə tərənnüm etmişlər.

Azərbaycanın dilbər guşəsi Qarabağa sənətkarlarımız öz əsərlərində xüsusi diqqət ayırmışlar. Qarabağın başı qarlı dağları, bu dağlardan axıb gələn gur bulaqları, çayları, dərələri rəssamlar üçün əvəzedilməz rəngləri və duyğuları özündə birləşdirən təbiət lövhələri idi.



Qarabağ mənzərələrinin ilkin təsvir nümunələri XIX əsrdə yaşayıb-yaratmış istedadlı şairə, eyni zamanda rəssam Xurşidbanu Natəvana (1832-1897) aiddir. Natəvan çəkdiyi qrafik rəsmlərdə Qarabağ təbiətini də təsvir etmişdir. Bu sırada "Gül", "Bülbül", "Bənövşə", "Qərənfil" və s. əsərlərin adlarını çəkmək olar. Mədəniyyət ocağı Şuşada təşəkkül tapan ədəbi-bədii cərəyanların fonunda rəssamlığın inkişafına da öz töhfələrini verən sənətkarların sırasında Mir Möhsün Nəvvab, Usta Qəmbər Qarabaği ilə yanaşı, Xurşidbanu Natəvanın da adını çəkməliyik. Onun 1886-cı ilə aid olan "Gül dəftəri" albomunda bu qrafik rəsmləri görə bilərik.

Qarabağ təbiətini, Şuşanın əsrarəngiz gül-çiçəklərini, cəh-cəh vuran quşlarını bəy mülklərinin divarlarına həkk edən rəssamlardan biri də Usta Qəmbər Qarabaği (1830-1905) olmuşdur. Mehmandarovların Şuşadakı evində Qarabağinin çəkdiyi divar rəsmləri onun ilk işi olsa da, kompozisiyanın boyaları bu günə qədər şux, canlı qalmışdır. Bu rəsmlərdə Qarabağ təbiətini əks etdirən mənzərələrlə yanaşı, müəllifin Şəki xan sarayı üçün çəkdiyi ornament və bəzək elementlərindən də istifadə etməsi diqqətdən yayınmır. Usta Qəmbər Qarabaği Şuşada Səfi bəyin və Rüstəmovların mülklərinə də heyrətamiz divar rəsmləri həkk etmişdir. Onun əsərləri XIX əsrdə milli boyakarlığın inkişafına mühüm təkan vermişdir.



XX əsr Azərbaycan rəssamları arasında Qarabağ mövzusuna müraciət edən sənətkarlarımız çoxdur. Onlardan təbiət aşiqi Səttar Bəhlulzadəni (1909-1974) xüsusi qeyd etmək lazımdır. Azərbaycanın səfalı təbiətini, iqlimini, təbiət hadisələrini, ətəyi gül-çiçəkli dağlarını, çayları aşıb-daşan dərələrini kətan üzərində həkk edən Səttar Bəhlulzadə çəkdiyi Qarabağ mənzərələrinə özünəməxsus tərzdə yanaşmışdır. Onun Şuşada sıldırım qayaların arasında saatlarla oturaraq Cıdır düzünə, Şuşa dağlarına uzun-uzadı tamaşa etməsi Səttar Bəhlulzadə tədqiqatçılarının qeydlərində öz əksini tapmışdır.

Rəssamın bu mövzuda ilk etüdlərinə "Dağ yolu", "Vaqifin qəbrinin yanında", eyni zamanda daha iri ölçüyə malik "Çaxmaq meşəsi" əsərləri aiddir. Yaradıcılığının erkən dövrlərinə təsadüf edən Qarabağ mənzərələri silsilə əsərlərində realizm ənənələri duyulan rəssamın "Şuşa. Ağaclar" (1956), "Yuxarı Daşaltı", "Dağ ətəyində", "Şuşa. Dağlar" (1960), "Qarabağ. Cıdır düzü", "Qarabağda yay", "Dağları duman bürüyəndə", "Qarabağ mənzərəsi" əsərləri öz çalarlarına və üslubuna görə bir-birindən az fərqlənsə də, Qarabağ təbiətini dolğun əks etdirən nümunələrdir. Sözügedən əsərlərin ilk eskizlərini qrafik formada albomunda çəkən sənətkar Bakıya qayıtdıqdan sonra bu görüntüləri kətan üzərinə yağlı boya ilə həkk etmişdir. Onun göz yaddaşı o qədər iti idi ki, əsərlərin boyasını o qədər dəqiq seçirdi ki, rəsmə baxanda özünü Şuşa dağlarında oturub Cıdır düzünə tamaşa edən yerdə hiss edirsən. Bu əsərlərdə həm də Səttar Bəhlulzadə romantizminin bədii-estetik həlli də öz əksini tapmışdır. Şuşa torpağına ilk ayaq basdığı andan bu diyarın ecazkar təbiətindən riqqətə gələn rəssam tablolarda əks olunmuş ağacların yarpaqlarına, dağların ətəyindəki çiçəklərə sanki kətan üzərində canlı həyat bəxş etmişdir.

Qarabağ mənzərələrini xüsusi doğmalıqla canlandıran Nadir Əbdürrəhmanov (1925-2008) Laçında dünyaya gəlmişdir. Uşaqlıq illərini Laçında, füsunkar Qarabağda keçirən rəssam doğma yurdunun təsvirlərini böyük məharətlə kətan üzərinə köçürmüşdür. Onun "Dağlarda alaqaranlıq", "Laçın. Minkənd", "Zəngilanın üzüm bağları", "Qaragöl gölündə", "Qış mənzərəsi", "Qarabağ xalçaları", "Turşsu" əsərləri bədii-estetik üslubuna görə təsviri sənət tarixində özünəməxsus yer tutmuş, sərgilərdə böyük marağa səbəb olmuşdur. Nadir Əbdürrəhmanov 1985-ci ildə Qarabağ insanlarına ithaf etdiyi əsərlərinə görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

Qarabağın füsunkar təbiətinə boyalarla həyat verən təsviri sənət ustalarımızdan biri də Mikayıl Abdullayev (1921-2002) olmuşdur. O, Azərbaycan rəngkarlıq sənətində öz realizmi ilə seçilən, çəkdiyi rəsmlərlə təsviri sənət tariximizə millilik, bədiilik gətirən rəssamlardan biridir. Mənzərələri və insan səhnələrini olduğu kimi təsvir edən sənətkarın əsərləri olduqca real və ifadəli hesab olunur. Mikayıl Abdullayevin Qarabağ mənzərələrinə müraciət etməsi onun ecazkar təbiət səhnələrinin vurğunu olması, onları mübaliğəsiz, fantaziyasız təsvir etmək istəyi ilə bağlı olmuşdur. Rəssamın "Axşam tablosu", "Qarabağlı qızlar", "Cıdır düzü", "Topxana meşəsi" əsərləri Qarabağ təbiətini, insanlarını, məişətini əks etdirir.

Mənzərə janrı bütün dövrlər üçün aktual olan və hər bir sənətkarın müraciət edəcəyi bir janrdır. Qarabağ mövzusunda çəkilən təbiət mənzərələri eyni məkanları, eyni fəsilləri əks etdirsə də, onları çəkən rəssamların keçirdikləri hiss və duyğulardan asılı olaraq mənzərələrin rəngli və ya rəngsiz, realist və ya romantik üslubda işlənməsi izləyicilərdə heyranlıq doğurur. Qarabağın heyrətamiz təbiəti sənətkarları məst etdiyi kimi, bu tabloları izləyənlərə də zəngin sənət zövqü bəxş edir...

**Elminə Həsənova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi — 2-4 noyabr

### Azərbaycan

**2 noyabr 1922** – Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrini davam etdirən "Molla Nəsrəddin" satirik jurnalının Bakıda ilk sayı çapdan çıxıb. Jurnal 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə nəşr olunmuşdu.

**2 noyabr 1934** – Şair, Əməkdar müəllim Oqtay Rza (Oqtay Məhərrəm oğlu Rzalı; 1934 – 18.8.2019) Salyan rayonunun Qalalı kəndində doğulub. N.Tusi adına ADPİ-də işləyib. Dünya xalqları ədəbiyyatından tərcümələr edib.

**2 noyabr 1937** – Görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlu (Mahmudov; 1937 – 18.11.2000) anadan olub. "Hicran", "Bankir adaxlı" və s. musiqili komediyaların, populyar mahnıların müəllifidir. Tamaşalara, filmlərə ("Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Onun bəlalı sevgisi", "İstintaq" və s.) musiqi bəstələyib.

**2 noyabr 1947** – Əməkdar artist Telman Rüstəm oğlu Əliyev (1947 – 4.7.2017) Şuşa şəhərində anadan olub. Gəncə, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 noyabr 1964** – Əməkdar artist Murad Məmmədrza oğlu Muradov (1884-1964) vəfat edib. Ağdam rayonunun Muradbəyli kəndində doğulub, Akademik Dram Teatrının aktyoru olub.

**2 noyabr 1988** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökumə Abbasəli qızı Qurbanova (11.6.1913 – 1988) vəfat edib. 1938-ci ildən Akademik Dram Teatrında çalışıb.

**2 noyabr 1997** – Azərbaycanın ilk sənədli film rejissorlarından olan Niyazi Mustafa oğlu Bədəlov (1909-1997) vəfat edib. 1936-cı ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu (Sergey Eyzenşteynin sinfi) bitirib.

**3 noyabr 1943** – Tiflis Azərbaycan teatrının ilk peşəkar aktyorlarından olmuş Mirzəli (Əlibala) Hacı Abbas oğlu Abbasov (1870-1943) vəfat edib. Tamaşalara quruluş verib, pyeslər yazıb. Gürcüstanın Əməkdar artisti olub.

**3 noyabr 1983** – Görkəmli aktyor, Xalq artisti Əliağa İsmayıl oğlu Ağayev (22.3.1913 – 1983) vəfat edib. Dövlət Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çalışıb. Filmlərdə yaddaqalan obrazlar yaradıb.

**3 noyabr 1997** – Əməkdar artist Zemfira Nəriman qızı Quliyeva (23.11.1937 – 1997) vəfat edib. 1963-cü ildən Musiqili Komediya Teatrında çalışıb.

**3 noyabr 2007** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Böyükağa Məşədi oğlu Mirzəzadə (21.2.1921 – 2007) vəfat edib. Tematik tablolar, portret janrında uğurlu nümunələr yaradıb, teatr tamaşalarına bədii tərtibat verib.

**4 noyabr 1939** – Əməkdar mədəniyyət işçisi Limunət Nurullah qızı Abdullayeva (1939-2016) Qax rayonunun Qaxmuğal kəndində doğulub. Qax Tarix-Diyarşünaslıq Muzeyinin direktoru işləyib.

**4 noyabr 1944** – Əməkdar mədəniyyət işçisi, rejissor, animasiya filmləri rəssamı Rauf Məmmədağa oğlu Dadaşov (1944 – 9.2.2020) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında, "Azanfilm" Studiyasında işləyib.

**4 noyabr 1954** – Aktyor Fərman Abdulcabbar oğlu Abdullayev (1954 – 5.3.2013) Şəkidə anadan olub. Şəki teatrında çalışıb, filmlərdə ("Həm ziyarət, həm ticarət", "Yalan") çəkilib.

**4 noyabr 1967** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (3.10.1887 – 1967) vəfat edib. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb.

### Dünya

**2 noyabr 1699** - Fransız rəssamı Jan Batist Simeon Şarden (Jean Baptiste Simeon Chardin; 1699-1779) anadan olub.

**2 noyabr 1906** – İtalyan kino və teatr rejissoru Lukino Viskonti (Luchino Visconti di Modrone; 1906 – 17.3.1976) anadan olub. Filmləri: "Rokko və onun qardaşları", "İnteryerdə ailə portreti" və s.

**2 noyabr 1950** – İrland əsilli Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1925) laureatı Corc Bernard Şou (George Bernard Shaw; 26.7.1856 – 1950) vəfat edib.

**3 noyabr 1797** – Rus yazıçısı Aleksandr Bestujev-Marlinski (1797-1837) anadan olub. Qafqaza sürgün olunub. Azərbaycan xalq qəhrəmanının həyatından bəhs edən "Molla Nur" povestini yazıb.

**3 noyabr 1801** – İtalyan bəstəkarı Vinçenso Bellini (Vincenzo Salvatore Carmelo Francesco Bellini; 1801-1835) anadan olub. Operaları: "Norma", "Somnambula" və s.

**3 noyabr 1869** – Rus şərqşünası, akademik Vasili Bartold (1869–1930) anadan olub. "Kitabi-Dədə Qorqud"un bəzi boylarını rus dilinə tərcümə edib.

**3 noyabr 1931** – İtalyan aktrisası Monika Vitti (Maria Louisa Ceciarelli; 1931-2022) anadan olub. Filmləri: "Al qadın", "Mehmanxana nömrəsi" və s.

**4 noyabr 1575** – İtalyan rəssamı Qvido Reni (Guido Reni; 1575-1642) anadan olub.

**4 noyabr 1923** – Alman yazıçısı Barbara Bartos-Höpner (Barbara Bartos-Höppner; 1923-2006) anadan olub. Uşaq və yeniyetmələr üçün kitabların, ssenarilərin müəllifidir.

**Hazırladı: V.Orxan**

# "Bir ulduz parladı uzaq üfüqdən..."

## Əhməd Cavadın yubileyi ilə bağlı tədbir

Bakı Slavyan Universiteti (BSU) Azərbaycan ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın (1892-1937) anadan olmasının 130 illiyinə həsr edilmiş "Bir ulduz parladı uzaq üfüqdən" adlı tədbir keçirilib.




Tədbirin moderatoru, kafedranın dosenti Günay Qarayeva XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi olan Əhməd Cavad yaradıcılığının mövzu dairəsi, dil-üslub və forma xüsusiyyətləri barədə geniş məlumat verib.

Kafedranın professoru Rəhilə Qeybullayeva istiqlal şairinin bədii yaradıcılığının bütün dövrlər üçün aktual olduğunu vurğulayıb.

Professor Leyla İmaməliyeva isə Əhməd Cavadın bir neçə xarici dil bilməsi və bədii yaradıcılığı ilə bağlı fikirlərini bölüşüb, onun pedaqoji fəaliyyətindən danışıb.

Filologiya fakültəsinin tələbələri Validə Vəliyevanın "1920-1930-cu illər ədəbi tənqidində Əhməd Cavad" və Aytac Mirzəyevanın "Əhməd Cavad yaradıcılığında türkçülük və turançılıq" mövzularında məruzələri dinlənilib.

# Türk Mədəniyyəti və İrsi Fondunda Litva karaimlərinə həsr olunmuş konfrans və sərgi

## Karaimlər Litvada yaşayan ən kiçik türkmənşəli etnik qrupdur



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Litva Respublikasının Azərbaycandakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində "Litva karaimləri" adlı konfrans və sərgi təşkil edilib.

Fondun prezidenti Günay Əfəndiyeva tədbirdə çıxış edərək tarixi şəraitlə bağlı bir sıra türk xalqlarının müxtəlif ölkələrə köçərək, orada məskunlaşmasından söz açıb. O, hazırda azsaylı türk etnik kökənli xalqlarla münasibətlərin bərpasının və genişlənməsinin müşahidə olunduğunu qeyd edib. Vurğulanıb ki, türk xalqlarının inteqrasiyasına türk dövlət başçıları, eləcə də Türk dünyası təşkilatlarları tərəfindən diqqət və dəstək göstərilir.

Günay Əfəndiyeva türk xalqlarının məskən saldığı ölkələrdən biri olan Litvada milli azlıqlara – tatar və karaimlərə göstərilən münasibəti təqdirəlayiq hal kimi qiymətləndirib. Bildirib ki, ötən il Litvada "Litva tatarlarının İli", bu il isə "Litva karaimlərinin İli"nin elan olunması bunun göstəricisidir. 2021-ci ildə Fond ilə Litva Respublikası arasında Litva tatarlarının və karaimlərinin tarixi və mədəni irsinin qorunması və təbliği məqsədilə əməkdaşlıq memorandumu imzalanıb. Fondda Litva xarici işlər naziri Qabrielius Landsberqisin iştirakı ilə "Litva tatarları" fotosərgisi açılıb.

Fondun prezidenti diqqətə çatdırıb ki, karaimlər Litvada yaşayan ən kiçik türkmənşəli etnik qrupdur. Trakayda məskunlaşan karaim icması əsrlər boyu öz adət-ənənələrini, inanclarını və ən əsası, dilini qoruyub saxlayıblar. Onların dili qıpçaq qrupuna aiddir və BMT tərəfindən qorunan dillərdən biridir. Karaimlərin sayının az olmasına baxmayaraq, Türk dünyasında özünəməxsus yerə sahibdirlər və Litva cəmiyyətinin də önəmli parçasıdırlar.

Fondun "Litva karaimlərinin İli"nin açılışı çərçivəsində keçirdiyi tədbiri də xatırladan Günay Əfəndiyeva deyib: "Tədbir Litva Respublikasının birinci xanımı Diana Nausedienenin Fondu ziyarət etməsi ilə gerçəkləşdi.



Diana Nausediene ilə xalqlararası inteqrasiyanın önəmindən, hər bir xalqın ümumbəşəri irsə bəxş etdiyi töhfələrdən, multikultural və tolerant dəyərlərin əhəmiyyətindən bəhs etdik. Bu gün yenidən karaim irsini tanımaq və tanıtmaq üçün bu konfrans və sərgidə bir araya gəlmişik...".

Tədbirdə çıxış edən Litvanın Azərbaycandakı səfiri Egidius Navikas Fondun fəaliyyətini Türk dünyası ilə digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun təşviqinə töhfə kimi qiymətləndirib. Fondla birgə layihələrin önəminə toxunan diplomat əməkdaşlıqdan məmnunluğunu dilə gətirib.

Litva Karaimləri Mədəniyyət Assosiasiyasının sədri Karina Firkaviciute konfransda təqdimatla çıxış edərək, karaimlərin qədim tarixi, mədəniyyəti, keçmişdən bu günə keçdiyi yol barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Konfransın sonunda qarşılıqlı şəkildə hədiyyələr təqdim olunub.

Tədbir iştirakçıları karaimlərin adət-ənənələrini, yaşayış tərzini, milli geyimlərini əks etdirən rəsmlərdən ibarət sərgiyə baxıblar. Litva karaimləri Rytas Linge və Augusta Firkovic tərəfindən ifa edilən milli musiqilər maraqla qarşılanıb.

# "Çağırışın 17 siması"

## BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini təcəssüm etdirən fotosərgi



Heydər Əliyev Mərkəzində BMT-nin Cenevrə Bölməsinin baş direktoru Tatyana Valovayanın təşəbbüsü, Heydər Əliyev Fondunun, İsveçrə Qadın və Gücləndirmə Assosiasiyasının (Association of Swiss Women & Empowerment) dəstəyi ilə "Çağırışın 17 siması" ("17 Faces of Action") adlı fotosərgi təşkil edilib.

Oktyabrın 28-də keçirilən açılış mərasimində Tatyana Valovaya layihənin reallaşdırılması prosesindən danışıb. Bildirib ki, sərgi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini (2030) özündə təcəssüm etdirir.

"Azərbaycan "Çağırışın 17 siması" adlı fotosərginin həyata keçirilməsi təşəbbüsünə cavab verən ilk ölkə olub. Ona görə də bu gün Bakıda açılan ilk sərgi nadir və daha çox simvolikdir. Dayanıqlı İnkişaf Məqsədlərinin təbliğində çox fəal olan 17 Azərbaycan qadını daha ədalətli dünyanın yaradılmasında yaxından iştirak edir. Ümidvarıq ki, bu təşəbbüs Birləşmiş Millətlər Təşkilatının digər ölkələri tərəfindən də reallaşdırılacaq. Sərginin təşkilinə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Heydər Əliyev Fonduna təşəkkürümü bildirirəm", - deyə Tatyana Valovaya bildirib.



Qeyd edək ki, layihənin hədəfi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə dəstək göstərmək, 17 dayanıqlı inkişaf məqsədinin reallaşmasına töhfə verməkdir. BMT-nin 2015-ci ildən elan etdiyi və Azərbaycanın da qoşulduğu Dayanıqlı İnkişaf Məqsədləri 15 il müddətinə insan inkişafı üçün əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığına təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarətdir.

Dayanıqlı İnkişaf Məqsədləri təhsil, sosial müdafiə və məşğulluq imkanları da daxil olmaqla, geniş spektrli sosial ehtiyacları və bununla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsini ön plana çıxarır. Bu məqsəd və hədəflər insanlıq naminə bütün formalarda yoxsulluğa son qoymaq, dünya naminə dayanıqlı istehlak və istehsalın davamlı idarə olunmasını, planetimizi korlanmadan qoruyaraq indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsini, sülh naminə qorxu və zorakılıqdan azad olan dinc, ədalətli və ayrı-seçkiliyə yol verilməyən cəmiyyətlərin dəstəklənməsini və sair nəzərdə tutur.

Heydər Əliyev Mərkəzindəki sərgidə Azərbaycanın müxtəlif bölgələrində yaşayan, fərqli sahələrdə nailiyyətlər əldə edən 17 qadının fotosu və ölkəmizin dəyərləri, tarixi, müasir inkişafı "Uğur hekayəsi", "Başqalarına kömək etməkdən çəkinməyin", "Sülh simvolu", "Yalnız irəli!" və digər bölmələrdə təqdim edilir.

Layihə ilk dəfə olaraq Azərbaycanda həyata keçirilib və 2022-2023-cü illər ərzində dünyanın daha 16 ölkəsində reallaşdırılacaq. Hər ölkədən öz dəyərlərini və mədəniyyətini təmsil edən, Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun gələn 17 qadın seçiləcək. Milli sərgilərdən sonra 2023-cü ildə İsveçrənin Cenevrə şəhərindəki Millətlər Sarayında (Palais des Nations) 17 ölkənin 17 seçilmiş qadınının təmsil olunduğu sərgi keçiriləcək.

# "Azərbaycandan dünyaya musiqi töhfəsi"

## Zalsburqda gənc pianoçumuzun təqdimatı



Avstriyanın Zalsburq şəhərində, Zalsburq Azərbaycan Evində beynəlxalq müsabiqələr laureatı, Avstriyanın Anton Brukner adına Konservatoriyasının tələbəsi, gənc pianoçu Ayan Məmmədlinin "Azərbaycandan dünyaya musiqi töhfəsi" adlı layihəsinin təqdimatı keçirilib.

Azərbaycanda Müstəqilliyin Bərpası Günü (18 oktyabr) və Avstriya Respublikasının Milli Günü (26 oktyabr) münasibətilə keçirilən tədbirdə avstriyalı və azərbaycanlı musiqisevərlər, bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.

Ayan Məmmədli bu layihəni hazırlamaqda əsas məqsədinin milli musiqimizi xarici auditoriyalara yaxından tanıtmaq, təbliğ etmək və gələcəkdə əcnəbilərlə yeni əməkdaşlıq əlaqələri yaratmaq olduğunu bildirib. Təqdimatda "Bayatı-Şiraz" muğamı, "Laçın", "Küçələrə su səpmişəm", "Şuşanın dağları", "Sarı gəlin" və "İncə bellim" kimi xalq və bəstəkar mahnıları yer alıb.

# Əcinnələr apardılar...

## Hellouin bayramı izdihamında 156 nəfər həlak olub

Cənubi Koreyanın paytaxtı Seulda Hellouin bayramının ("Əcinnələr, cadular günü") qeyd edilməsi zamanı faciənin baş verdiyi döngədə yerləşən hotelin terrasının qanunsuz olaraq artırıldığı məlum olub.

Yerli medianın məlumatına görə, "Hamilton" hotelinin terrasının qanunsuz uzadılması faciə baş verən döngənin eninin azalmasına səbəb olub. Bayram izdihamı zamanı faciə də bu dar döngədə baş verib. Ötən il yerli səlahiyyətli qurumlar hoteli qanunsuz artırmaya görə cərimə də edibmişlər.

Qeyd edək ki, oktyabrın 29-da axşam saatlarında Seulda kafe və restoranların, gecə klublarının yerləşdiyi İtavon adlı ərazidə təxminən 100 min nəfərin iştirak etdiyi Hellouin şənlikləri zamanı kütlənin 40 metr uzunluğundakı dar, maili döngədən endiyi zaman sıxlıq yaranıb. İzdihamdakı insanlardan bir neçəsinin müvazinətini itirməsi "domino effekti" yaradaraq, digərlərinin də yıxılıb ayaqlar altında qalmasına səbəb olub. Nəticədə 156 nəfər ölüb, 30-u ağır olmaqla 150-dən çox insan xəsarət alıb. Faciə qurbanlarının çoxunun 20-30 yaş arasında gənclər, habelə məktəblilər olduğu bildirilir.

Hadisə ilə əlaqədar yaradılmış fövqəladə qərargahın məlumatına əsasən, ölənlər arasında 14 xarici ölkənin (İran, Çin, Rusiya, ABŞ, Yaponiya, Fransa, Avstraliya, Norveç, Avstriya, Vyetnam, Tailand, Qazaxıstan, Özbəkistan və Şri-Lanka) 26 vətəndaşı var.

Cənubi Koreya Prezidenti Yun Sok Yol faciə ilə əlaqədar ölkədə 5 günlük matəm elan edib. Dövlət başçısı faciənin detallı araşdırılacağını və gələcəkdə oxşar hadisələrin olmaması üçün əsaslı qabaqlayıcı tədbirlərin görüləcəyini bildirib.

Xatırladaq ki, bu, Cənubi Koreyada 2014-cü ildə çoxu məktəbli olmaqla 304 nəfərin ölümü ilə nəticələnən bərə qəzasından sonra kütləvi insan tələfatına səbəb olan ilk böyük hadisədir.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 138 il əvvəl...



**1 noyabr 1884-cü ildə** beynəlxalq miqyasda coğrafi uzunluq və saat zolağının başlanğıc nöqtəsi kimi Qrinviç meridianı (yaxud sıfır meridianı) qəbul edilib. Qrinviç meridianı Londondakı Qrinviç rəsədxanasının yerləşdiyi yerdən hesablanır.

### 101 il əvvəl...

**3 noyabr 1921-cü ildə** Rusiya K(b)P Mərkəzi Komitəsi Qafqaz Bürosunun plenumu Cənubi Qafqazın üç sovet respublikasının – Azərbaycan, Ermənistan və Gürcüstanın federasiyasının yaradılması barədə qərar qəbul edib. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası 1922-ci ildə yaradıldı və Sovet İttifaqının (SSRİ) təsisçilərindən biri oldu. ZSFSR 1936-cı ilədək fəaliyyət göstərdi və həmin il qəbul edilən SSR-nin yeni Konstitusiyasına əsasən, Azərbaycan, Ermənistan və Gürcüstan Sovet İttifaqının müttəfiq respublikalarına çevrildilər.

### 99 il əvvəl...

**2 noyabr 1923-ci ildə** Azərbaycanı Tədqiq və Tətəbbö (Araşdırma) Cəmiyyəti – respublikanın baş elmi müəssisəsi təsis olunub. Sonralar təşkilat müxtəlif adlarla fəaliyyət göstərib və onun əsasında Azərbaycan Elmlər Akademiyası (1945) yaradılıb.

### 94 il əvvəl...

**3 noyabr 1928-ci ildə** Türkiyədə ərəb əlifbasından latın qrafikalı əlifbaya keçid barədə qərar verilib. Azərbaycanda latın qrafikalı əlifba ilə bağlı qərar 1922-ci ildə qəbul olunmuş, tam keçid 1929-cu ildə gerçəkləşmişdi. Ardınca Mərkəzi Asiyanın türk respublikaları da analoji qərar qəbul etdilər. Lakin SSRİ rəhbərliyi türkdilli respublikaların bu həmrəyliyinə imkan vermədi. 1939-cu ildə Moskva bu respublikaları kiril əlifbasına keçməyə məcbur etdi.

### 68 il əvvəl...



**1 noyabr 1954-cü ildə** Əlcəzairdə Fransa müstəmləkəçiliyi əleyhinə inqilab başlanıb. Milli-azadlıq mübarizəsi 8 il sürdü və 1962-ci ildə Əlcəzair Xalq Demokratik Respublikası elan edildi. 1 noyabr Əlcəzairdə milli bayram – İnqilab Günü kimi qeyd olunur. Əlcəzair XVI əsrin əvvəlindən Osmanlı imperiyasının tərkibində olmuş, 1830-cu ildən isə Fransanın müstəmləkəsinə çevrilmişdi.

### 28 il əvvəl...

**1 noyabr 1994-cü ildə** Azərbaycan Respublikası ilə Qvatemala arasında diplomatik münasibətlər qurulub.

### 23 il əvvəl...

**1 noyabr 1999-cu ildə** Ankarada Azərbaycan Prezidenti Heydər Əliyevə Atatürk Sülh Mükafatının təqdimetmə mərasimi keçirilib. Azərbaycan rəhbəri Türkiyə Cümhuriyyətinin yüksək mükafatına iki ölkə arasında dostluq əlaqələrinin inkişafı, Cənubi Qafqazda sülh və sabitlik naminə göstərdiyi xidmətlərə görə layiq görülmüşdü.

**Hazırladı: V.Orxan**

# "Daha yaxşı şəhər, daha yaxşı həyat"

## ICESCO-dan müsəlman ölkələrinə çağırış

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO beynəlxalq ictimaiyyətin hər il oktyabrın 31-də qeyd etdiyi Dünya Şəhərlər Günü ilə bağlı müraciət yayıb.

Müraciətdə bildirilir ki, bu il "Daha yaxşı şəhər, daha yaxşı həyat" devizi ilə qeyd edilən Dünya Şəhərlər Günündə gündəmdə olan əsas məsələ şəhərlərin və şəhərətrafı ərazilərin abadlaşdırılmasında müasir texnologiyalardan istifadə edilməsi, şəhərsalmada davamlı inkişafa nail olmaq və yaşıl şəhərləri təşviq etmək üçün tərəfdaşlıq və əməkdaşlığın möhkəmlənməsidir. ICESCO bu fürsətdən istifadə edərək, ölkələri, hökumətləri, beynəlxalq təşkilatları, qurumları və vətəndaş cəmiyyəti institutlarını şəhərlərdə ətraf mühitin qorunması, inkişaf siyasəti və proqramlarının təşviqi istiqamətində birgə işləməyə çağırır. Bu, eyni zamanda şəhərlərin sakinləri üçün layiqli həyatın təmin edilməsinə, onların təmiz hava və keyfiyyətli içməli su ilə təmin edilməsinə töhfə verəcək.

Müraciətdə diqqətə çatdırılıb ki, ICESCO İslam dünyasında "ağıllı" və dayanıqlı şəhərlər proqramı çərçivəsində fəaliyyət planı hazırlayıb. Sənəddə təşkilata üzv dövlətlərdə müvafiq konsepsiyaları təşviq etmək, təbii ehtiyatlardan istifadəni rasionallaşdırmaq və bərpa olunan enerji mənbələrinə üstünlük vermək tövsiyə olunub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3187
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641